www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 noyabr 2016-cı il Cümə № 256 (6577) Qiyməti 60 qəpik

**Xəbər**

## Azərbaycan hərbi xərclərini 1 milyard manat artırır

yazısı səh.6-da

**Gündəm**

### İlqar Məmmədov bu gün azadlığa buraxıla bilər



REAL sədrinin çoxdan gözlənilən məhkəməsi başlayır; ictimaiyyətin Ali Məhkəmədən gözləntiləri var

yazısı səh.3-də

### Əməkdaşlarımız Akif Çovdarovun doğulduğu kənddən yazır

yazısı səh.10-da

### Rusiya-Ermənistan birgə qoşunu Naxçıvanla sərhəddə-təhlükə

yazısı səh.6-da

*Bayram Səfərov:*

### "İşğalçı ilə nə "qaynar xətt"?.."

yazısı səh.11-də

### Facebook qadağalarına reaksiyalar: etiraz da var, dəstək də...

yazısı səh.4-də

### "Rabitə çetesi" büdcəni "konfet kimi yeyib"-yeni faktlar

yazısı səh.5-də

### Nazirin aylıq 300 mini, Qarabağ qazisinin 55 manatı...

yazısı səh.3-də

### ABŞ-ın yeni dövlət katibi "Azərbaycan dəstəkçisi" ola bilər

yazısı səh.11-də

### İltimas Məmmədov villası üçün verilən 1.5 milyondan nə dedi?

yazısı səh.3-də

### "Aztəminatlı ailələr güzəştli mənzil əldə edə bilməyəcək"-iddia

yazısı səh.12-də

### 33 rayona dövlət büdcəsindən pul ayrılmayacaq

yazısı səh.13-də

### Aslan Aslanovun oğlunu öldürən ömürlük məhkuma daha 1 il iş verdilər

yazısı səh.14-də

## Banklar dolları kimlərə və necə satır - şok maxinasiya sxemi

# DOLLARIN BAHALAŞMASININ İKİ MÜDHİŞ SİRRİ - HƏBSDƏKİ VƏ İSTİNTAQ ALTINDAKI VARLILAR...

Külli miqdarda kredit borcu olan, o cümlədən dövlət əmlakını mənimsə faktlarına görə ittiham olunanlar hər ay milyon dollar toplayıb borca verir; varlılar isə bahalı villalarını nağd pula çevirir, həmin vəsaiti isə dollar alışına yönəldirlər




yazısı səh.5-də

## Prezidentin "muxtariyyət" təklifinə Sərkisyandan reaksiya - "Ərazi bütövlüyünüzü tanıyırıq..."

Düşmən ölkə başçısının rus jurnalistə müsahibəsindəki bəzi ilginc və sətiraltı mətləblərin pərdəarxası; Sərkisyan yenə "atı arabanın arxasına" bağlamaq istədi, öz xalqına "buna da hazır ol" mesajını verdi...

yazısı səh.7-də



### Prezident internet azadlığı, Assanc və müxalifətin mitinqi haqda danışdı

yazısı səh.4-də



Bricit Brink

### ABŞ emissarını Bakıya göndərir-Obamanın son cəhdinin pərdəarxası

yazısı səh.7-də



*Vüsalə Mahirqızı:*

### "APA Holdinqə qarşı bütün iddialar zamanın təkəri altında qalıb"

yazısı səh. 8 və 9-da

# Çovdarov tələsir: "Mənə hökm oxuyun"

**Noyabrın 17-də Sabunçu Rayon Məhkəməsinin inzibati binasında ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov, MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq işçisi, polkovnik Səlim Məmmədov, MTN-in sabiq idarə rəisi, mayor Akif Əliyev və keçmiş şöbə rəisi Orxan Osmanovun cinayət işi üzrə məhkəmə iclası davam etdirilib.**



"Report"un məlumatına görə, Bakı Hərbi Məhkəməsinin sədri Həbib Həsənovun sədrliyi ilə keçirilən prosesdə A.Çovdarov ötən məhkəmə iclasında vəkilləri Kamandar Nəsibov və Sadiq Rəsulovdan imtina etməsi barədə ərizəsini geri götürdüyünü bildirib.

O, bu barədə məhkəməyə müraciət edib. A.Çovdarov onun müdafiəsinə yeni qoşulan Şahin Rəfiyevin də müdafiəçi kimi məhkəmədə iştirak etməsini istəyib.

Məhkəmədə Çovdarovun işə yeni qoşulan vəkili Şahin Rəfiyev cinayət işi ilə tanış olmaq üçün vaxt istəsə də, hakim bunu təmin etməyib.

Prosesdə Akif Çovdarovun vəkilləri cinayət işinə xitam verilməsi ilə bağlı vəsatət veriblər. Eləcə də Akif Çovdarov barəsində həbs qərarının ləğv edilməsini, barəsində ev dustaqlığının seçilməsini istəyiblər.

Bu vəsatətlərin heç biri təmin edilməyib.

Kamandar Nəsibov vəsatət verərək Akif Çovdarovun barəsində məhkəmə tibbi ekspertizası keçirilməsini, bu ekspertizanın xaricdən gələn mütəxəssislər tərəfindən keçirilməsini istəyib.

Məhkəmə bunu qismən təmin edib. Belə ki, Çovdarov barəsində tibbi ekspertiza təyin olunub, lakin ekspertiza yerli mütəxəssislər tərəfindən aparılacaq.

Prosesdə qısa çıxış edən Akif Çovdarov bildirib ki, onunla birlikdə təqsirləndirilən şəxslərin heç bir günahı yoxdur: "Uşaqları buraxın, nə deyirsiniz edəcəm, sənədlərə də qol çəkəcəm. Onların heç bir günahı yoxdur. Mənə də hökm oxuyun".



## Azərbaycanda yaşayış minimumu 155 manat olur

**2017-ci ildə Azərbaycanda yaşayış minimumunun dəqiq rəqəmi açıqlanıb. Bu barədə modern.az-a Milli Məclisdən məlumat verilib.**

"2017-ci il üçün yaşayış minimumu haqqında" qanun layihəsinə əsasən, gələn il Azərbaycanda yaşayış minimumunun 155 manat olması təklif edilir.

Layihədə yaşayış minimumu əmək qabiliyyətli əhali üçün 12,7% və yaxud 18,5 manat artırılaraq 164,5 manata, pensiyaçılar üçün 13,2% və yaxud 15,2 manat artırılaraq 130,2 manata, uşaqlar üçün isə 16,8% və yaxud 19,6 manat artırılaraq 136,6 manata çatdırılıb.

2017-ci ildə Azərbaycanda ehtiyac meyarının isə builki səviyyədə, yəni 105 manatda saxlanılması təklif olunur. Bu da "2017-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsində nəzərdə tutulub.

2017-ci ilin dövlət büdcəsi zərfinə daxil olan sənədlər artıq Milli Məclisə daxil olub. Xatırladaq ki, bu il üçün yaşayış minimumu 136 manatdır. Başqa sözlə, sözügedən göstərici 14% və yaxud 19 manat artırılır.

## Mingəçevir su anbarında zəlzələ



**Azərbaycan Milli Elmlər Akademiyası Respublika Seysmoloji Xidmət Mərkəzindən daxil olmuş məlumata əsasən, 17 noyabr 2016-cı il tarixində Bakı vaxtı ilə saat 13:53-də Mingəçevirdən 25 km şimal-qərbdə Mingəçevir su anbarı ərazisində, 23 km dərinlikdə, 3,2 maqnituda gücündə zəlzələ qeydə alınıb.**

APA-nın Fövqəladə Hallar Nazirliyinin saytına istinadən verdiyi xəbərə görə, zəlzələ yaxın yaşayış məntəqələrində 3.0 bala qədər hiss edilib. İlkin məlumata əsasən, insan tələfatı və dağıntı olmayıb.

## Şamaxıda doğuş zamanı ana ölümü

**Şamaxı rayonunda ana ölümü qeydə alınıb. APA-nın xəbərinə görə, hadisə noyabrın 16-da gecə baş verib. Hadisə Şamaxı Mərkəzi Rayon Xəstəxanasının Doğum şöbəsində qeydə alınıb.**

Ərçiman kənd sakini, 1996-cı il təvəllüdlü Nuriyeva Qaratel Bəxtiyar qızı təbii doğuşla qız övladı dünyaya gətirib. Doğuşu qəbul edən mama-ginekoloq Nəzakət Abdulrazaqova APA-ya bildirib ki, normal keçən doğuşdan bir sutka sonra qadının vəziyyəti qəflətən pisləşib. Bu zaman aparılan müayinələr zamanı anada qaraciyər sirrozu, HELLP sindromu, kəskin qaraciyər və böyrək çatışmazlığı aşkarlanıb.

Həkimin sözlərinə görə, bütün tədbirlərin görülməsinə baxmayaraq, ananı xilas etmək mümkün olmayıb. Bu, qadının ilk hamiləliyi olub.

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**



## Bəzi rayonlarda sulu qar, qar yağacaq

**Bakı və Abşeron yarımadasında noyabrın 18-də arabir yağış yağacağı gözlənilir. Arabir güclənən şimal-qərb küləyi əsəcək.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən APA-ya verilən məlumata görə, havanın temperaturunun yarımadada gecə 7-9° isti, gündüz 10-12° isti, Bakıda gecə 7-9° isti, gündüz 10-12° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi normadan yüksək 764 mm civə sütunundan 774 mm civə sütununa yüksələcək. Nisbi rütubət 85-95 % təşkil edəcək.

Tibbi-meteoroloji proqnoza əsasən, noyabrın 17-si axşamdan 20-dək Abşeron yarımadasında arabir güclənən xəzri küləyi fonunda rütubətli və tutqun hava şəraitinin üstünlüyü bəzi meteohəssas insanlarda narahatlıq hissi yarada bilər.

Azərbaycanın rayonlarında arabir yağış yağacağı, duman olacağı gözlənilir. Bəzi dağlıq və dağətəyi rayonlarda sulu qar, qar yağacağı ehtimalı var. Gündüz qərb rayonlarından başlayaraq yağıntı tədricən kəsiləcək. Arabir güclənən qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3-8° isti, gündüz 8-13° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 4-9° isti olacağı gözlənilir.

## Merkel Azərbaycan bəstəkarının diskini alıb?



**Azərbaycan Bəstəkarlar İttifaqının sədri, xalq artisti, professor Firəngiz Əlizadənin əsərləri dünyanın bir çox yerində səslləndirilir. Bəstəkarlar İttifaqının mətbuat xidmətindən "Trend"ə verilən məlumata görə, bugünlərdə F.Əlizadənin musiqisinin yer aldığı OYAN diski Almaniya kansleri Angela Merkel tərəfindən də əldə olunub.**

Məlumatlara görə, məşhur musiqiçi Konstantin Manayev konsertlərin birində F.Əlizadənin "Aşk havası" əsərini ifa etdiyini və A.Merkelin bu əsərdən xoşu gəldiyini deyib. Nəticədə A.Merkel bəstəkarın violonçel musiqisinin yer aldığı OYAN diskini musiqi kolleksiyasına əlavə edib.

## Qripə görə ali məktəblər, kolleclər və yataqxanalar dezinfeksiya edilir

**Bakıdakı bütün ali məktəblərdə, kolleclərdə və məktəbəqədər təhsil müəssisələrində, məcburi köçkünlərin sıx məskunlaşdığı yerlərdə, o cümlədən köçkün yataqxanalarında qrip və kəskin respirator virusa qarşı kütləvi dezinfeksiya tədbirləri aparılıb.**

Bunu "Trend"ə Bakı Şəhər Dezinfeksiya Stansiyasının kadrlar üzrə mütəxəssisi Kəmalə Cəfərova deyib.

K.Cəfərova qeyd edib ki, bu tədbirlər səhiyyə naziri Oqtay Şirəliyevin qrip və kəskin respirator xəstəliklərinə qarşı profilaktik tədbirlərin gücləndirilməsi məqsədilə verdiyi əmr əsasında həyata keçirilib. K.Cəfərova əlavə edib ki, Bakıdakı 331 məktəbəqədər təhsil müəssisəsində dezinfeksiya tədbirləri yekunlaşsa da, paytaxtdakı 334 ümumtəhsil müəssisəsində bu işlər hələ davam etdirilir.

Onun sözlərinə görə, indiyədək yalnız Bakının Qaradağ, Səbayel və Yasamal rayonlarında bir neçə orta məktəb dezinfeksiya edilməyib. Bunu həmin məktəblərdə tədrisin iki növbədə aparılması ilə izah edən K.Cəfərova həmin təhsil müəssisələrində də dezinfeksiya tədbirlərinin noyabrın 19-dək yekunlaşacağını və bununla bu tədbirlərin paytaxtdakı bütün ümumtəhsil müəssisələrini əhatə edəcəyini söyləyib.

Qeyd edək ki, dezinfeksiya tədbirləri Bakı ilə yanaşı, ölkənin digər böyük şəhərlərində - Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Masallı və Cəlilabadda da aparılacaq.

## Zakir Həsənov cəbhə bölgəsində komandirlərə tapşırıqlar verdi

**Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə nazirliyin və Silahlı Qüvvələrin rəhbər heyəti, birlik və birləşmələrin komandir və qərargah rəisləri, eləcə də məsul zabitlərin iştirakı ilə irimiqyaslı təlimlərin yekunlarına dair kollegiya iclası keçirilib.**

Modern.az xəbər verir ki, kollegiya iclasında çıxış edən müdafiə naziri təlimlərin nəticələrini təhlil edərək bildirib ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən müxtəlif poliqonlar və təlim sahələrində keçirilən irimiqyaslı təlimlərdə qarşıya qoyulan məqsəd və vəzifələr uğurla yerinə yetirilib.

Nazir bütün qoşun növ və qisimləri, xüsusi təyinatlılar, təminat vasitələri tərəfindən döyüş şəraitinə maksimal uyğunlaşdırılmış vəziyyətdə imkanlarını praktiki tətbiq edərək təlim-döyüş tapşırıqlarının tələb olunan səviyyədə icrasına nail olunduğunu qeyd edib, həmçinin döyüş atışlarının icrası, bölmələrin və atəşin manevrlərinin həyata keçirilməsi zamanı komandirlərin və şəxsi heyətin peşəkarlığını yüksək qiymətləndirib.

Şəxsi heyətin döyüş qabiliyyəti və mənəvi-psixoloji hazırlığını xüsusi qeyd edən müdafiə naziri belə təlimlərin keçirilməsinin əhəmiyyətini vurğulayaraq, Ali Baş Komandanın Silahlı Qüvvələr qarşısında qoyduğu müvafiq tapşırıqları komandir-rəis heyətinə çatdırıb.

## Prokuror Səlahəddin Dəmirtaşa 5 il həbs istədi

**PKK terror təşkilatını təbliğ etdiyinə görə həbs edilən Xalqların Demokratiyası Partiyasının (HDP) həmsədri Səlahəddin Dəmirtaşın ilk məhkəmə iclası keçirilib.**

"Anadolu" agentliyi xəbər verir ki, Adana 2-ci Ağır Cəza Məhkəməsindəki iclasda Dəmirtaşı müdafiə etmək üçün bir neçə vəkil iştirak edib.

Məhkəmədə iştirakı üçün Ədirnə həbsxanası ilə səs və görüntülü əlaqə yaradılsa da, Dəmirtaş bundan imtina edib və ifadəsi ilə bağlı bəyanat yayacağını bildirib.

Bundan sonra Dəmirtaşın vəkillərindən Vedat Özkan müvəkkili ilə görüşüb, bəyanatı alacağını deyib və bununla bağlı məhkəmədən təxirə salınmasını istəyib.

Hakim vəkilin vəsatətini təmin edib və məhkəmənin növbəti iclasını 10 yanvar tarixinə təyin edib.

Qeyd edək ki, prokuror Dəmirtaşa 5 il həbs cəzasının verilməsini tələb edib.

**Bu gün-noyabrın 18-də saat 11:00-da Ali Məhkəmədə hakim Əli Seyfəliyevin sədrliyi ilə REAL hərəkatının həbsdəki sədri İlqar Məmmədovun kasasiya şikayətinə baxılacaq. Vicdan məhbusunun məhkəməsindən gözləntilər böyükdür. Çoxları onun bu prosesdə azadlığa buraxılacağına inanır.**

# İlqar Məmmədov bu gün azadlığa buraxıla bilər

## REAL sədrinin çoxdan gözlənilən məhkəməsi başlayır; ictimaiyyətin Ali Məhkəmədən gözləntiləri var

Əksəriyyət barəsində Avropa İnsan Haqları Məhkəməsinin 6 qətnaməsi olan, həbsinin yarıdan çoxunu geridə qoyan REAL sədrinin azad edilməsinin vacib olduğunu vurğulayır. Ali Məhkəmənin bu ilin martından etibarən bəzi tanınmış siyasi məhbuslar barəsində müsbət qərarlar qəbul etməsi İ.Məmmədovun bu gün azadlığa çıxacağına olan ümidləri daha da artırır.

**REAL sədrinin vəkili Fuad Ağayev proses barədə "Yeni Müsavat"a bunları dedi:** "Mən öz işimi görür, vəzifə borcumu yerinə yetirirəm. Məhkəmə barədə proqnoz vermək mənlik deyil".

**İ.Məmmədovun həyat yoldaşı Vəfa Məmmədova onunla noyabrın 16-da telefon vasitəsilə əlaqə saxladığını bildirdi:** "Özünün məhkəmə ilə bağlı elə də ümidləri yoxdur. Nələrin ola biləcəyini əvvəlcədən bilmək çox çətindir. Hər halda, mənim ümidim az da olsa var. Hər şey məhkəmə günü məlum olacaq".

**Hüquq müdafiəçisi Səidə Qocamanlı 18 noyabrda İ.Məmmədovu azadlıqda görmək sevincini yaşayacaqlarına çox ümid etdiyini söylədi:** "Allahdan ümidimi kəsmirəm. O, çox ləyaqətli, azadlığa yaraşan bir insandır. Ona görə də bu məhkəmədə azadlığına qovuşmalıdır. Ümid edirəm ki, bu ilin sonunda bu problemlərlə bağlı bir çox insan azadlığa buraxılacaq. İlqar Məmmədov sıradan biri deyil. Onun işi beynəlxalq təşkilatların daima diqqət mərkəzində olub. Bu iş üzrə iki vicdan məhbusundan Tofiq Yaqublu artıq azadlıqdadır və ümid edirəm ki, İlqar Məmmədov da onun kimi bu hissi yaşayacaq. İnsanları qorumaq, onlara inanmaq lazımdır. Bunu həm zaman, həm də həyat tələb edir. Hesab edirəm ki, İlqarın azad olunması ölkəmiz və bizlər üçün çox vacibdir. Bu məsələni qapatmaq lazımdır. Ali Məhkəmənin düzgün, ədalətli qərar qəbul edəcəyinə və İlqar bəyi ailəsinə, azadlığına qovuşduracağına inanıram. Azərbaycan hər zaman istiqamətini gizlətməyərək, yolunun Qərb yolu olduğunu bildirib. Bu işin Qərb institutlarının gündəmində olması məhz bundan irəli gəlir. İlqar Məmmədovun azadlığı onu sübut edəcək ki, Azərbaycan bu problemi həll etməyə qadir ölkədir. Veriləcək qərar Qərblə olan münasibətləri daha da istiləşdirəcək. İndiyə qədər məhz İlqar Məmmədovun işi ilə bağlı başımız çox ağrıyıb. Bu məsələ gündəmdən çıxarılsa, daha da önəmli addımlar atılacaq".


İlqar Məmmədov

Qeyd edək ki, İ.Məmmədov və T.Yaqublu 2013-cü il yanvar ayının 24-də İsmayıllıda baş vermiş kütləvi iğtişaşların təşkilində ittiham olunublar. Şəki Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə İ.Məmmədov 7 il, T.Yaqublu isə 5 il müddətinə azadlıqdan məhrum ediliblər.

Hökmdən narazı qalan təqsirləndirilən şəxslər apelyasiya şikayəti ilə Şəki Apelyasiya Məhkəməsinə müraciət ediblər. Məhkəmə onların apelyasiya şikayətlərini təmin etməyib. Bundan sonra İ.Məmmədov və T.Yaqublu kasasiya şikayəti veriblər. Ali Məhkəmə kasasiya şikayətinə baxaraq işi təkrar baxılması üçün Şəki Apelyasiya Məhkəməsinə göndərib.

Şəki Apelyasiya Məhkəməsi yenidən birinci instansiya məhkəməsinin qərarını qüvvədə saxlayıb. İ.Məmmədov həmin qərardan kasasiya şikayəti verib. Xatırladaq ki, T.Yaqublu bu ilin martında verilən əfv sərəncamı ilə azad olunub.

❑ **Cavanşir ABBASLI**

# Nazirin aylıq 300 mini, Qarabağ qazisinin 55 manatı...

**Deputat Aytən Mustafayeva Milli Məclisin Əmək və sosial siyasət komitəsinin son iclasında əlillərə verilən 55 manat müavinətin utancverici olduğunu deyib. O, komitə iştirakçılarına sualla müraciət edərək soruşub ki, əlil ona verilən 55 manatlıq müavinətlə necə yaşaya bilər?**

"Rabitə işi" adlandırılan məhkəmədə isə üzə çıxıb ki, sabiq nazir Əli Abbasovun aylıq xərcləri üçün 300 min manat civarında vəsait ayrılırmış. Nazirin 300 min manatı, sağlamlığını vətən uğrunda qurban vermiş Qarabağ qazilərinin isə aylıq təqaüdü 55 manat... Sosial ədalətsizliyin bu həddə olması daha utancvericidir. Qarabağ qazisinin aldığı 55 manatla yalnız 5 kilo ət almaq mümkündür. Amma nazirin aldığı 300 min manatı Azərbaycan daxilində xərcləməklə qurtarmaq mümkün deyil.

Maraqlıdır, Azərbaycandakı bu sosial ədalətsizliyin səbəbi nədir? Bunun qarşısını necə almaq olar?


**Əhməd Qəşəmoğlu:** "Azərbaycanda bütün sahələrdə sosial ədalətsizlik var"


**Rey Kərimoğlu:** "Bu vicdansızlıqdır"


**Natiq Cəfərli:** "Günə 10 min manatın ağılla xərclənməsi Bakı reallığında mümkün deyil"

**Sosioloq Əhməd Qəşəmoğlu Azərbaycanda bütün sahələrdə sosial ədalətsizliyin olduğunu dedi:** "Vətən uğrunda iki ayağını, sağlamlığını itirmiş adamların təqaüdləri çox olmalıdır. Əhalinin elə təbəqəsi var ki, onlar həddsiz dərəcədə az əmək haqqı alır, eləsi də var ki, çox. Təsəvvür edin ki, professor ömrü boyu işləyir və onun aldığı təqaüd heç 200 manat da deyil. Amma hansısa adam prokuror işləyibsə, o, 2 minə yaxın təqaüd alır. Bu adam prokuror işlədiyi dövrdə ailəsi üçün müəyyən işlər görüb, maddi bazası var. Amma professor ömrü boyu işləyib, lakin kasıb yaşayır. Təqaüdə çıxanda da 200 manat alır. Burada heç bir məntiq yoxdur ki, niyə professor prokurordan 10 dəfə az təqaüd alır. Prokurora nə qədər verirlər versinlər, amma professora da elə təqaüd vermək lazımdır ki, heç olmasa dərmanlarını ala bilsin".

**Qarabağ qazisi Rey Kərimoğlu isə iki ayağını vətən uğrunda itirmiş birinə 75 manat verib onu taleyin ümidinə buraxmağın vicdansızlıq olduğunu dedi:** "Biz Qarabağ Qazilər Birliyi bu məsələni dəfələrlə qaldırmışıq. Təəssüflər olsun ki, deputatlar indi bu məsələni qaldırır. 2014-cü ildə Ağdamda hər iki ayağını itirmiş Qarabağ qazisinə dövlət bu gün 75 manat təqaüd verir. Bu yolverilməzdir, dövlətin, dövlət başçısının siyasətinə ziddir. Bu problemlər həll olunmalıdır. Milli Məclis bu məsələlərə baxmalıdır, qanunda dəyişiklik edilməli, təqaüd artırılmalıdır. Bu sosial ədalətsizlik aradan qalxmalıdır".

**R.Kərimoğlu onlara verilən təqaüdlə nəinki aylıq dolanışığın mümkün olmadığını, heç dərmanlarına yetmədiyini dedi:** "Bizə verilən aylıq təqaüdlə nəinki aylıq ərzaq tələbatını ödəmək mümkün deyil, heç dərmanlarımıza yetmir. Neçə ildir bizə az təqaüd verən insanlar tapılıb cəzalandırılmalıdır. İki ayağını itirmiş oğlana 75 manat verib onu taleyin ümidinə buraxmaq olmaz. Bu vicdansızlıqdır. Biz neçə illərdir bunu deyirik, amma eşidən yoxdur. İndi bu məsələ aktuallaşıb. Ümid edirik ki, deputatlar düşünüb ədalətli qərar verib məsələni həll edəcəklər".

Maraqlıdır, sabiq nazirin aldığı 300 min manatı Azərbaycan daxilində necə xərcləmək olar? Ümumiyyətlə, hər ay 300 min manat xərcləmək mümkündürmü?

**İqtisadçı ekspert Natiq Cəfərli bu pulun ağıllı başla xərclənməsinin qeyri-mümkün olduğunu dedi:** "300 min manat sabiq nazirin rəsmi maaşı deyil, korrupsiya sistemləri ilə bağlı ona düşən vəsait idi. Qarabağ uğrunda döyüşən insanlara belə aşağı təqaüdün verilməsi təbii ki, sosial ədalətsizlikdir. Ümumiyyətlə, ölkədə sosial ədalətsizlik kifayət qədər yüksək səviyyədədir ki, bu da hökuməti ən çox düşündürən məsələlərdən biri olmalıdır. Çünki sosial ədalətsizlik gec-tez sosial gərginliyə gətirib çıxarır və hökumət bu barədə ciddi düşünməlidir. Qaldı ki, 300 min manatı xərcləməyə, günə 10 min manat düşür və təbii ki, gündə 10 min manatı istəsən də belə xərcləyib qurtara bilməzsən. Çox güman ki, bu vəsaitin hamısı xərclənməyə sərf olunmayıb. Bir hissəsi yığıma, bir hissəsi obyektlərin, yaxud da daşınmaz əmlakın alınmasına yönəlib. Bir çox həbs olunmuş məmurların işində görürük ki, onlarla, bəzən də yüzlərlə daşınmaz əmlaka sahib olublar. Deməli, bu vəsait həm də bu yöndə xərclənib. Günə 10 min manatın ağılla xərclənməsi Bakı reallığında mümkün deyil. Çünki restorana da getsəniz, özünüzə hər hansısa bir geyim də alsanız, belə bu vəsaiti xərcləmək, həm də hər gün bunu təkrar etmək mümkün deyil".

❑ **Günel MANAFLI**

# Nazir müavini villası üçün verilən 1.5 milyondan danışmaq istəmir

## İltimas Məmmədov: "Ünvanıma səsləndirilən ittihamlarla bağlı..."

**Rabitə və yüksək texnologiyalar nazirinin müavini İltimas Məmmədov barəsində məhkəmədə və istintaqda səsləndirilən ittihamlara cavab vermək istəmir.**


İltimas Məmmədov

İ.Məmmədov "Report"a açıqlamasında ittihamlarla bağlı danışmaq niyyətində olmadığını deyib. "Ünvanıma səsləndirilən ittihamlarla bağlı açıqlama vermək niyyətində deyiləm", - o əlavə edib.

Xəbər verdiyimiz kimi, noyabrın 16-da Bakı Ağır Cinayətlər Məhkəməsində Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) sabiq aparat rəhbəri Vidadi Zeynalovun vəkili Beylər Məmişov bildirib ki, rabitə və yüksək texnologiyalar naziri Əli Abbasov və onun müavini İltimas Məmmədov ibtidai istintaq zamanı şahid qismində dindirilib: "Həmin şəxslərin ifadələri ittiham aktında əks olunub. Lakin nazir və onun müavininin adı hazırda şahidlər siyahısında qeyd edilməyib. Onların ifadələrində təqsirləndirilən şəxslərin ünvanına ittihamedici xüsusatlar öz əksini tapdığı üçün tələb edirəm ki, hər iki şəxs məhkəmədə şahid qismində ifadə versin".

"Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin (BTRİB) sabiq baş direktoru Beytulla Hüseynov isə istintaqa ifadəsində nazir müavini İltimas Məmmədova ev tikintisi üçün 1,5 milyon manat pul verdiyini deyib. Həmin pul BTRİB-in və nazirliyin digər strukturlarının vəzifəli şəxslərinin xərclərin şişirdilməsi, mənimsəmə və digər korrupsiya əməlləri nəticəsində keçmiş nazir Əli Abbasovun formalaşdırdığı "obşiy katyol"a topladıqları pullardan verilib.

# Prezident internet azadlığı, Assanc və müxalifətin mitinqi haqda danışdı

## İlham Əliyev: "Əgər sosial şəbəkədə - facebook və twitterdə 2 milyon insanımız varsa, mətbuat azadlığını necə məhdudlaşdırmaq olar?!"

**Prezident İlham Əliyev noyabrın 17-də Dünya Xəbər Agentliklərinin V Konqresinin iştirakçılarının bir qrupunu qəbul edib. AzərTAc xəbər verir ki, prezidentin qısa giriş nitqindən sonra görüş maraqlı polemika şəraitində keçib.**

"Associated Press" agentliyinin vitse-prezidenti Con Danişevski Azərbaycanda bir neçə jurnalistin həbsdə olması barədə soruşub. "Bizə Əli Həsənov bildirdi ki, onların həbsdə olmaları məhz jurnalistlik fəaliyyətləri ilə bağlı deyil. Onlar xuliqanlıq, vergi pozuntuları və digər bu cür məsələlərlə bağlı həbs olunublar. Bildiyimizə görə, Xədicə İsmayılova həbs olunduqdan sonra "Azad Avropa" radiostansiyasının bürosunun fəaliyyətinin bərpa edilməsinə icazə verilməyib. Ölkə xaricində bəzi jurnalistlər var ki, təqiblərə məruz qaldıqlarını bildirirlər. Siz dünənki çıxışınızda aydın şəkildə qeyd etdiniz ki, Azərbaycanın dünyada dolğun şəkildə tanınmasını istəyirsiniz. Siz dünyada Azərbaycanla və mətbuat azadlığı ilə bağlı yenidən əminlik yaratmaq üçün atıla bilinəcək bəzi addımlar barədə nə deyə bilərsiniz" deyə, sual edib.

**Prezident İlham Əliyev belə cavab verib:** "Siz dünya deyəndə kimi nəzərdə tutursunuz? Siz həmişə dünyanın adından danışmağı xoşlayırsınız. Mən 13 illik prezidentlik fəaliyyətim dövründə bunun şahidiyəm. Dünya hər hansı bir ayrılıqda götürülmüş ölkədən böyük məfhumdur. Biz çox zaman belə bir ifadəyə rast gəlirik ki, beynəlxalq birlik hansısa bir məsələdən narahatdır. O zaman müəyyənləşdirmək lazımdır, beynəlxalq birlik dedikdə nə nəzərdə tutulmalıdır? Beynəlxalq birlik BMT-yə üzv olan 200 ölkə deməkdir. Dünən mən öz çıxışımda da qeyd etdim ki, bu ölkələrin üçdə ikisi Azərbaycanı BMT-nin Təhlükəsizlik Şurasına üzvlük məsələsində dəstəkləmişlər. Mən dünənki çıxışımda onu da qeyd etmişdim ki, Azərbaycanda mətbuat azadlığı tam şəkildə təmin olunub. Bu məsələnin mahiyyətinə diqqət yetirmək kifayət edir. Ölkəmizdə əgər azad internet fəaliyyət göstərirsə, senzura yoxdursa, əhalinin 75 faizi internet istifadəçisidirsə, mətbuat azadlığının məhdudlaşdırılmasından necə danışmaq olar?! Əgər sosial şəbəkədə - facebook və twitterdə 2 milyon insanımız varsa, mətbuat azadlığını necə məhdudlaşdırmaq olar?! Biz qarşımıza bu cür siyasi məqsəd qoymamışıq. Bizim məqsədimiz bütün azadlıqların təmin olunduğu, müasir, inkişaf edən, demokratik cəmiyyət quruluşunu davam etdirməkdən ibarətdir. Bu, bütün digər azadlıqlara da şamil olunur. Məsələn, sərbəst toplaşma hüququ. Bəzən Azərbaycanı tənqid edirlər ki, bizdə sərbəst toplaşma hüququ yoxdur. Bu, yanlışdır. Bunun üçün bu yay müxalifətin keçirdiyi mitinqlərə nəzər salmaq kifayətdir. Qeyd edim ki, onlar oraya çox adam yığa bilmədilər, onların sayı dünən Heydər Əliyev Mərkəzində keçirilən tədbir iştirakçılarının sayından az idi. Lakin onlar azad şəkildə toplaşmışdılar, heç bir məhdudiyyət yox idi. Bir daha qeyd edirəm ki, Azərbaycanda mətbuat azadlığı tam şəkildə təmin olunub. Ayrı-ayrı jurnalistlərlə bağlı olan məsələlərə kontekstdən kənar baxılmamalıdır. Ölkələrin çoxunda jurnalistlərin cinayət törətməsi halları baş verir və onlar istintaqa cəlb olunurlar. Biz bu məsələdə obyektiv olmalıyıq, məsələlərə obyektivlik mövqeyindən yanaşmalıyıq. Mən də sizə belə bir sual vermək istərdim: Azərbaycanı qeyd etdiyim məsələlərlə bağlı tez-tez tənqid edirlər, bəs siz mənə deyə bilərsinizmi ki, nəyə görə Culian Assanc hələ də Ekvadorun Londondakı səfirliyindədir? Culian Assanc bir neçə il bundan qabaq hansısa qadınla hansısa əlaqələrə görə ekstradisiya və ölüm cəzası təhlükəsi ilə üzləşib. O, iki ildən artıqdır ki, səfirlikdədir və çölə çıxmaqdan qorxur. Bunu necə izah edə bilərsiniz? Jurnalistlə bu cür rəftar etmək demokratikdirmi? Bu rəftara nə ad vermək olar?"



**"Müxalifət keçirdiyi mitinqlərə çox adam yığa bilmədi, onların sayı Heydər Əliyev Mərkəzində keçirilən tədbir iştirakçılarının sayından az idi"**

**"Assanc iki ildən artıqdır ki, səfirlikdədir və çölə çıxmaqdan qorxur"**

***Con Danişevski:***

***- Bilirsiniz, mən bu məsələ ilə bağlı ekspert deyiləm. Mənim fikrimcə, o, İsveçə geri qayıda bilər, orada prokurorlarla təmasda ola bilər və bu məsələlərlə məşğul ola bilər.***

**Prezident İlham Əliyev:**

- Onda o, həbs olunacaq, ekstradisiya ediləcək və yəqin ki, ömürlük həbs cəzası alacaq.

***Con Danişevski:***

***- Mmmmm.... Mən... Mən əmin deyiləm... Bəlkə isveçli həmkarım....***

***Prezident İlham Əliyev:***

- Mən demək istəyirəm ki, bu cür hallar baş verir və bu cür məsələlərə kontekstdə baxılmalıdır. Hansısa ayrı bir ölkə hücumlara hədəf seçilməməlidir. Heç kim mükəmməl deyil və bütün bu məsələlərə reallıq kontekstində baxılmalıdır.

# Facebook qadağalarına reaksiyalar: etiraz da var, dəstək də...

**Baş prokuror Zakir Qaralov Cinayət Məcəlləsinə 148-1 (İnternet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtan atma və ya təhqir etmə) maddəsinin əlavə edilməsi ilə bağlı Milli Məclisə təkliflər layihəsi təqdim edib.**

Yeni maddəyə əsasən, internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə böhtan atma və ya təhqir etmə 1000 manatdan 1500 manata qədər cərimə və ya 360 saatdan 480 saata qədər ictimai işlər, yaxud 2 ilədək müddətə islah işləri və ya 1 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qanuna digər bir dəyişiklik də təklif edilir. Dəyişikliyə əsasən, Azərbaycanda internet informasiya məkanında dövlət başçısının-Prezidentin şərəf və ləyaqətini ləkələmə və ya alçaltma cəhdi cinayət məsuliyyəti yaradacaq.



**Bəxtiyar Sadıqov:**
"Burada məqsəd qətiyyən hansısa müxalifətçi ilə haqq-hesab çəkmək deyil"



**Sərdar Cəlaloğlu:**
"Sabah hər birimiz sosial şəbəkədə təhqir hədəfi ola bilərik"

Qeyd edək ki, bu gün sosial şəbəkələr bütün sərhədləri aşaraq, informasiyanın əsas məkanına çevrilib. Azərbaycanda təkcə facebook istifadəçilərinin sayı 1.7 milyon nəfərdən çoxdur. Bəzi siyasətçilər və hüquq müdafiəçiləri bildiriblər ki, məhz buna görə hakimiyyət narahatdır, facebookdakı azadlığı məhdudlaşdırmaq üçün yollar axtarır. Bəziləri hesab edir ki, sosial şəbəkələrdə aşırı aqressiyanın artması insanların sosial problemlərinin artması və həll edilməməsindən, müxalifətə geniş fəaliyyət meydanı verilməməsindən qaynaqlanır.

Artıq Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutu (RATİ) bəyanat yayaraq Milli Məclisi baş prokurorun göndərdiyi layihəyə səs verməməyə çağırıb. RATİ bildirib ki, diffamasiya maddələrinin cinayət qanununda olması İnsan Hüquqları üzrə Avropa Konvensiyasına və Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakta qoşulmuş Azərbaycanın öhdəlikləri ilə kəskin ziddiyyət təşkil edir.

**"Azərbaycan" qəzetinin baş redaktoru, deputat Bəxtiyar Sadıqov isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, baş prokurorun Milli Məclisə göndərdiyi sözügedən təkliflər Cinayət Məcəlləsinə daxil edilməlidir:** "İnsanlara böhtan atılmasının, şərəf və ləyaqətinin aşağılanmasının əleyhinəyəm. Çox təəssüf ki, Azərbaycanda artıq reket saytlar yaranıb, sosial şəbəkədə reket profillər yaradılıb. Bəzən sosial şəbəkələrdə insanlar haqqında həddən artıq təhqiramiz ifadələr işlədilir. Azərbaycandakı söz azadlığından bir sıra adamlar sui-istifadə edir. Söz azadlığının arxasında gizlənib şər-böhtan, təhqirlər yağdırılır. Bəzən isə müxtəlif ünvanlardan gələn sifarişlər əsasında böhtan, təhqir yazılır və buradan da reketçilik yaranır. O insanların ki, kiməsə sözünü açıq deməyə kişiliyi çatmır, həmin insanlar başqalarına sifariş verir, təhqirlər yazdırır. Ona görə də Cinayət Məcəlləsində bu cür hallarla bağlı konkret məsuliyyət nəzərdə tutulmalıdır".

**Cinayət Məcəlləsinə sosial şəbəkələrdə yazılanlarla bağlı məsuliyyət nəzərdə tutan maddələrin daxil edilməsinin Azərbaycanın beynəlxalq imicinə mənfi təsir göstərəcəyi ilə bağlı deyilənlərə gəldikdə, deputat bildirdi ki, narahatlığa əsas yoxdur:** "Dünyanın bir çox inkişaf etmiş ölkələrində də sosial şəbəkələrlə, saytlarla bağlı müəyyən məhdudiyyətlər var. Məsələn, Böyük Britaniyanın özündə məhdudiyyətlər tətbiq edilir. İnsanların təhqir edilməsinə görə təhqir edən məsuliyyət daşımalıdır. Özü də burada məqsəd qətiyyən hansısa müxalifətçi ilə haqq-hesab çəkmək deyil. Saxta profillər yaradıb həmin profillərdə təhqirlər, böhtanlar yazan şəxslərin cəzalandırılacağından söhbət gedir. Şükür Azərbaycanda müxalifət açıq fəaliyyət göstərir, sözünü açıq deyir, açıq yazır, mövqeyini lazım biləndə mitinqlərdə də ifadə edir. Buna görə də heç kim onlara heç nə demir, heç bir problem yaratmır. Odur ki, mən qeyd olunan məsələnin beynəlxalq imicimizə təhlükə yaradacağını düşünmürəm. Cinayət Məcəlləsinə həmin əlavələri etməyin qarşısını almaq istəyənlər və təhqirdə, böhtanda maraqlı olanlar o cür iddia ortaya atırlar ki, guya bu məsələ beynəlxalq imicimizə mənfi təsir edəcək, insan hüquqları pozulacaq. Məgər insan ləyaqəti, şəxsiyyəti söz azadlığından azmı dəyərlidir? Yox. Ona görə də mən baş prokurorun təşəbbüsünün tərəfdarıyam".

**ADP sədri Sərdar Cəlaloğlu belə hesab edir ki, təhqir yazan şəxs kimliyindən asılı olmayaraq məsuliyyət daşımalıdır:** "Siyasi opponentlik etməklə, tənqid etməklə başqasının ləyaqətini aşağılamaq, təhqir etmək bir araya sığmır. Ona görə də Cinayət Məcəlləsində təhqirə görə cinayət məsuliyyətinin nəzərdə tutulmasına normal baxmalıyıq. Çünki sabah hər birimiz sosial şəbəkədə təhqir hədəfi ola bilərik. Bəzən görürsən ki, sosial şəbəkədə küçədə deyilməsi mümkün olmayan söyüşlər yazılır. Mənim ailəmin üzvləri niyə sosial şəbəkədə söyüş görməlidir? Mən Cinayət Məcəlləsinə həmin maddənin əlavə edilməsini düzgün sayıram. Amma sonra bundan istifadə edib tənqidi fikirlərinə görə də insanları sıxışdırmaq kimi sui-istifadəyə qətiyyən yol verməmək olmaz".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 256 (6577) 17 noyabr 2016

# Banklar dolları kimlərə və necə satır - şok maxinasiya sxemi

**Noyabrın 17-də Bakıda banklar dolların manata nisbətdə məzənnəsini bir qədər də qaldırıblar. Marya.az saytının məlumatına görə, banklarda dolların satış qiyməti 1 manat 77 qəpiyə yüksəlib. Bəzi banklar isə Maliyyə Bazarlarına Nəzarət Palatasının dəfələrlə etdiyi xəbərdarlığa baxmayaraq, valyuta alqı-satqısını dayandırıblar ki, bu da dolların yaxın günlərdə daha da bahalaşacağından xəbər verir.**



Mərkəzi Bank və Neft Fondu hər gün banklara nə qədər dollar satılması barədə xəbərlərə qadağa qoyduqdan sonra bank bossları daha da ürəkli olublar. Bəzi banklar bu qadağadan sui-istifadə edərək deyirlər ki, guya onlara ümumiyyətlə, Mərkəzi Bank dollar satmır. Bank sektorundakı mənbələrimizdən əldə etdiyimi xəbərlər isə bunun əksini göstərir. Məlumatlara görə, gündəlik keçirilən valyuta hərraclarında son günlər tələbin təklifi üstələməsi daha da kəskinləşib. İddia olunur ki, tələb təklifi bəzi hallarda 15-17 dəfə üstələyir. Yəni banklar nəinki dollar alır, hətta dollar almaq üstündə “qırğın” gedir. Bu dolların böyük bir qismi isə əhaliyə satılmır.

Dollara tələbatın kəskin artmasının iqtisadi səbəbləri aydındır. Məsələn, iqtisadçı alim Qubad İbadoğlu deyib ki, dolların bahalaşmasına səbəb ölkə iqtisadiyyatının durumudur. “Hazırda Azərbaycan iqtisadiyyatı tənəzzüldədir. Manatın məzənnəsinin aşağı düşməsini önləmək üçün iqtisadi tənəzzülün qarşısını almaq lazımdır. Çalışmaq lazımdır ki, ölkədən xaricə daha az valyuta getsin. Proqnoz vermişdim ki, bu ilin sonu Azərbaycan manatı üçün ağır olacaq, çünki ilin sonunda xarici öhdəlikləri yerinə yetirmək istiqamətində valyutaya tələbat artır. O baxımdan tələbatın artması son nəticədə manatın devalvasiya etməsinə gətirib çıxardacaq” deyə, iqtisadçı bildirib. İqtisadçı dolların 1 manat 90 qəpik və ya 2 manat ola biləcəyini vurğulayıb.

İqtisadi səbəb öz yerində, amma dollara kəskin tələbatın bilinməyən daha iki müdhiş səbəbi də var.

“Yeni Müsavat”ın əldə etdiyi məlumata görə, hazırda daşınmaz əmlak bazarında bir çaxnaşma yaşanır. Belə ki, daşınmaz əmlakın hər ötən gün dəyər itirməsi əslində bir çox əmlakı olan varlı təbəqəni hərəkətə keçirib. Onlar əmlaklarının dəyərdən düşməsinin qarşısını almaq üçün bahalı villalarını nağd pula çevirməyə, həmin vəsaiti isə dollar alışına yönəltməyə başlayıblar. Bu da dollara bazarda olan tələbatı daha da artırıb. Onlar bankların daxilində qeyr-qanuni fəaliyyət göstərən “qara bazar”la anlaşaraq külli miqdarda dollar alırlar. Banklarda qurulmuş “qara bazar” sxemi təxminən əvvəlki illərdə gördüyümüz təyyarə və qatarlara bilet satışı kimidir. Yəni “bankda dollar satışı yoxdur, amma istəsəniz sizə təşkil edə bilərik” prinsipi ilə.

Mənbə deyib ki, banklar bir müddət əl altından qeyri-qanuni fəaliyyət göstərən valyutadəyişmə məntəqələri ilə iş birliyi qurdu. Böyük həcmdə dollar almaq istəyənləri “qara bazar”dakı adamlarına yönləndirirdilər. Amma “qara bazar”da “yanmaq” riski *(DİN və DTX son aylar əməliyyat keçirib bir neçəsini həbs edib, elə keçən valyuta isə müsadirə olunub-"YM" )* böyük olduğundan, buna daha həvəs göstərmirlər.

## Dolların bahalaşmasının iki müdhiş sirri - həbsdəki və istintaq altındakı varlılar...

Külli miqdarda kredit borcu olan, o cümlədən dövlət əmlakını mənimsə faktlarına görə ittiham olunanlar hər ay milyon dollar toplayıb borca verir; varlılar isə bahalı villalarını nağd pula çevirir, həmin vəsaiti isə dollar alışına yönəldirlər

İddia olunur ki, bəzi banklarda iri və ciddi alıcılara hətta bir neçə milyon dollar da satılır. Təbii ki, həm də rəsmi məzənnədən artıq qiymətə...

Sənədləşmənin necə aparıldığına gəlincə, mənbə deyib ki, banklarda bu sənədləşmə maxinasiyasını həll etmək su içmək qədər asandır və ən müxtəlif variantlar var.

Dollara tələbatın daha bir ciddi səbəbi isə ölkədə böyük bir suçlu məmur ordusunun yaranmasıdır. Belə ki, Beynəlxalq Bank işi, onun ardınca MTN-də baş verənlər və Rabitə Nazirliyində (RYTN) iri həcmli korrupsiya yüzlərlə vəzifəli şəxsi ittiham obyektinə çevirib. İndi bir çox idarə və müəssisə rəhbərləri həbsdə olsalar da, “borcunu ödəməyə söz verən” xeyli şəxs azadlıqdadır. Buna bariz misal olaraq sabiq rabitə və yüksək texnologiyalar naziri Əli Abbasovu göstərmək olar. Son məhkəmə prosesində məlum olub ki, sabiq nazir dövlətə vurduğu 6,8 milyon manat ziyan ödəyib. Rəsmi qaynaqlarda bu vəsait milli valyuta ilə göstərilsə də, dəqiq məlumat belədir ki, borclulardan istisnasız olaraq dollar qəbul edilir. Külli miqdarda kredit borcu olan, o cümlədən dövlət əmlakını mənimsə faktlarına görə ittiham olunanlar hər ay bir neçə yüz min, hətta milyon dollar toplayıb borca verir. Üstəlik, xeyli adam da borcunu ödəmək üçün əmlakların satışa çıxarıb və istisnasız olaraq alqı-satqını dollar ekvivalenti ilə aparır. Bu isə ölkədə dollara olan tələbatı daha da artırır.

Məlumata görə, həbsdə olanlar da üzərlərində həbs qoyulmayan əmlaklarını indi kütləvi şəkildə bazara çıxarıblar. Azadlığa çıxmaq və ya ittihamları yüngülləşdirmək üçün isə...dollar lazımdır. Həm də daha tez...

❑ **“YM”**

# “Rabitə çetesi” büdcəni konfet kimi yeyib-yeni faktlar

Sürücüdən tutmuş nazirə, MTN generallarına qədər verilmiş rüşvət və mənimsəmə faktlarından hələ də məsuliyyətə cəlb edilməyən sabiq nazir Əli Abbasovun xəbəri olub

**APA və “Report” Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin hazırda həbsdə olan və məhkəməsi keçmiş yüksək vəzifəli şəxslərinin ibtidai istintaqa verdikləri ifadələrdən epizodları yayır. Belə məlum olur ki, “Rabitə çetesi” dövlətin büdcəsini müəyyən adamları da şərik etməklə, “konfet kimi yeyib”.**



Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin həbsdə olan aparat rəhbəri Vidadi Zeynalovun istintaqda verdiyi ifadəsinə diqqət edək. V.Zeynalov deyib ki, nazirlikdə işlədiyi dövrdə Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin (BTRİB) rəisi Beytulla Hüseynov 2009-cu ildə mənə ayda 200.000 manat, sonradan birliyin gəlirləri artdığından 2012-ci ildə aylıq olaraq 300.000 manat, bəzi hallarda, yəni həmin ilin yanvar-fevral aylarında 500.000-600.000 manat məbləğində pul verib. V.Zeynalovun bildirdiyinə görə, Beytulla Hüseynov bu aylıq “haqqı” ona nazir Əli Abbasovun göstərişi ilə verirdi.

Bundan başqa, V. Zeynalov ifadəsində göstərib ki, aylıq pul verənlər BTRİB və “Aztelekom” MMC olub. “Azərpoçt” MMC-dən hər ay təqribən 50 min manat, Məlumat Hesablama Mərkəzindən hər ay 50 min manat, Beynəlxalq Əlaqələr və Hesablama Mərkəzindən isə 220.000-240.000 manat məbləğində pul verilib. Lakin bu struktur bölmələri həmin məbləğləri mütəmadi olaraq verməyib. Elə vaxtlar olub ki, gəlirləri olmayıb və həmin strukturlar pul verməyib.

Bundan əlavə, qoyulmuş qaydaya görə həmin idarələr tərəfindən verilən pulların 25-30 faizi onların özlərinə verilib. BTRİB və “Aztelekom” MMC üzrə verilən aylıq puldan onlara verilməyib. Belə ki, onların fəaliyyət sahələri nisbətən geniş olub. Müəyyən olunmuş aylıq pul vəsaitlərini verdikdən sonra qalan vəsaitlər onlara qalıb. Bu qayda ilə həmin idarələrə ayda təxminən 50.000-100.000 manat pul qalıb. “Aztelekom” MMC-dən hər ay pulu cəmiyyətin direktoru Məmməd Məmmədov və ya onun Qulu adlı köməkçisi, həmçinin cəmiyyətin baş mühasibi Oqtay adlı şəxs verib.

V. Zeynalov ifadəsində bildirib ki, nazirin tapşırığı ilə bir il yarım ərzində hər ay 50.000 ABŞ dolları MTN-in Monitorinq Xidmətinin rəisi Teymur *(MTN-in Monitorinq Mərkəzinin sabiq rəisi, general-mayor Teymur Quliyev)* adlı şəxsə onun sürücüsü, 2011-ci ildən başlayaraq isə hər ay 100.000 ABŞ dollarını nazirliyin kuratoru Sübahir *(MTN-in Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin sabiq rəisi, general-mayor Sübahir Qurbanov-red.)* adlı şəxsə sürücüsü vasitəsilə göndərib.

Bundan əlavə, hər ay toplanan puldan 200.000-300.000 manat nazirin şəxsi işlərinə sərf olunması üçün onun özünə verib. Nazir müavinlərinə ayda əvvəllər 15-20 min manat, son iki ildə isə hər birinə 30 min manat “paket” verilib.

BTRİB-in keçmiş rəhbəri B.Hüseynov isə ifadəsində deyib ki, 2009-2015-ci illərdə nazirliyin rəhbərliyi tərəfindən ona BTRİB üzrə aparılan təmir-tikinti işləri və alınan mal-materiallar üzrə qiymətlərin 20-25 faizi şişirdilib əldə olunan vəsaitlərin 80 faizinin nazirliyə verilməsi barədə tapşırıq verilib. Həmin göstərişin icrasını təmin etmək məqsədilə BTRİB və onun struktur bölmələri tərəfindən görülən işlər və alınan mal-materiallar üzrə qiymətlərin 20-25 faiz artırılması barədə telefon qovşaqlarının rəhbərlərinə və iş görən təşkilat kimi “Bakı Rabitə Tikinti Təmir” MMC-nin direktoru Bayram Vəliyevə və “Rabitə Mülki Tikinti” MMC-nin direktoru Emin Məmmədova göstəriş verib.

Bu vəzifəli şəxslər isə onun göstərişini icra edərək görülən işlərin, alınan mal-materialların qiymətlərini 20-25 faiz artırıb, əldə olunan vəsaitin 5 faizini telefon qovşaqlarının rəislərinə, 5 faizini qovşaqların baş mühasibi və baş mühəndislərinə verib, mal-material xərcini, əmək haqqı xərclərini çıxdıqdan sonra qalan vəsaiti onun göstərişi ilə birliyin baş mühasibi A.Mustafayevə ötürüb.

O, ifadəsində vurğulayıb ki, keçmiş nazir Əli Abbasovun tapşırığı əsasında birliyin baş mühasibi A.Mustafayev hər ayın sonunda görülən işlər və alınan mal-materiallar üzrə qiymətlərin şişirdilməsi yoluyla əldə olunan vəsaitlər barədə nazirliyin yüksək vəzifəli şəxsinə məlumat verib.

Bundan sonra A.Mustafayev birbaşa aparat rəhbərinə hesabat verib, onun göstərişi ilə əldə olunan vəsaitin 80 faizini sonuncuya verib. Bu qayda ilə A.Mustafayevin vasitəsilə ilk aylarda nazirliyin rəhbər şəxslərindən birinə 200.000-250.000 manat, sonrakı aylarda isə 100.000-150.000 manat olmaqla, ümumilikdə 10 milyon manat pul verib.

Nazir müavini İltimas Məmmədova isə ev tikintisi üçün bir dəfəyə 1,5 milyon manat pul verib. O, qiymətlərin şişirdilməsi yolu ilə əldə etdiyi vəsaitdən şəxsən özünə hər ay 25-30 min manat olmaqla cəmi 1 milyon 200 min manat pul qaldığını, həmin pulu da şəxsi ehtiyaclarına sərf etdiyini bildirib.

Göründüyü kimi, bütün yeyinti faktlarında hələ də məsuliyyətə cəlb edilməyən Əli Abbasov birbaşa iştirak edib.



# Atalarının büdcəsiymiş kimi...

Xalid KAZIMLI

**Türmələr toyuq oğrularıyla, ona-buna 5-10 manatlıq fırıldaq gələnlərlə, cibdən telefon çırpışdıranlarla, maşınlardan maqnitofon çıxaranlarla doludur. Ehtiyac üzündən, işsizlikdən, kasıbçılıqdan bu cür xırda çaplı cinayət əməlləri törədənlər cəzalarını, necə lazımdır, çəkirlər.**

Bir də məhkəmədən hazırlanmış reportajda belə bir cümlə oxuyuruq:

"Qeyd edilib ki, Əli Abbasov tərəfindən ibtidai istintaq zamanı rəhbərlik etdiyi nazirlikdə törədilmiş qanunsuzluqlarla əlaqədar vurulmuş ziyan üzrə 3 milyon 800 min manat, 600 min avro, 1 milyon 200 min ABŞ dolları (hazırkı məzənnə ilə cəmi 6 milyon 800 min manat) ödəniş aparılıb".

Bu cümlənin açması belədir ki, nazirin dövlətə vurduğu ziyan onun öz hesabına ödənilib - cəmi-cümlətanı altıca milyon, 800 min manat.

Yəni sabiq nazir bu qədər pulu mənimsəyibmiş, ancaq üstü açıldığından tutub geri alıblar.

Bu, hələ faş olunan mənimsəmə faktıdır. Prinsipcə, üstü açılmayan mənimsəmə faktları da "n" qədər olmalıdır.

Müxtəlif mənasız işlərə, məclislərə, hədiyyələrə, villalara, bahalı maşınlara xərclənmiş, payız xəzəli kimi havaya sovrulmuş milyonları isə geri qaytarmaq mümkün deyil. Adam ayda 300 min manat pul xərcləyirmiş, ta nə olsun.

Yəqin ki, ibtidai istintaqa verdiyi ifadə zamanı qaytarılması boynuna qoyulan həmin o 6,8 milyon dolları geri ödəmək üçün Əli Abbasov borca düşməyib, qohumlarına "ilişmişəm, canımı qurtarmalıyam" deyə ağız açmayıb, gizli seyflərinin birindən götürüb, verib.

Bu, hələ bu hökumətin ən sakit, ən mədəni nazirlərindən biriydi. Adı nə odiozluqda çəkilirdi, nə də mafiozluqda. Heç "yaxşı maskalanırmış" da demək olmaz. Onun haqqında müsbət fikirlər söyləyənlər çoxdur.

Bununla belə, adam milyardların fırlandığı konveyerin içində olduğundan ayda 300 min xərcləməyə, milyonlar mənimsəməyə məcbur vəziyyətə düşübmüş. Adam ağ köynəklə mazut qazanının içinə giribsə, oradan təmiz çıxa bilməzdi.

Həm də hər gün ölkəyə neft və qaz satışından milyardlar gəlirdi və həmin milyardlara çıxışı olanlar bu qədər pulu hara, necə xərcləyəcəklərinin dərdini çəkirdilər. Əsas problem pul çatışmazlığı deyildi, pulu israf etmək üçün layihə qıtlığı vardı.

Heç kimin də ağlına gəlmirdi ki, Bakını sel kimi də yox, sunami kimi altına almış neft dollarlarının ardı bir gün kəsilə bilər.

Zatən, bu mənimsənilən milyardlarla bağlı qalmaqallar, generalların, bankirlərin həbsi boş yerdən ortaya çıxmadı, pul azalmış, dağıtmağa, talan etməyə bir şey qalmamışdı. Həbs edilənlərin isə orta ranqdan olmasına rəğmən böyük vəsaitlər topladıqları ortaya çıxmışdı.

Ancaq üç bankiri, beş generalı, yeddi idarə rəisini, doqquz şöbə müdirini həbs etməklə dağıdılmış milyardları geri gətirmək mümkün deyil.

Əgər bütün talançıları A.-dan Z.-yə qədər ifşa etsələr, topladıqlarını əllərindən alsalar, bəlkə ortalığa bir şey çıxarmaq olardı.

Ancaq ötən il ifşa prosesini Z.-dən A.-ya doğru başlamaq təşəbbüsü yarımçıq saxlanıldı. Nəticədə odioz-mafioz oliqarx-nazirləri, komitə sədrləri, onların müavinləri toxunulmazlıq status qazandılar.

Heç ifşa olunmuş yüksək mənsəbli məmurların da bir çoxuna dəyib-dolaşan yoxdur. O mənada ki, onların milyonlarla dollar məbləğində ölçülən mənimsəmə, talama faktları ortaya çıxsa da, barələrində cinayət işi açılmayıb.

Məsələn, Çovdarova 3 milyon dollar xərac verən dövlət şirkətinin rəisi azadlıqdadır, hətta artıq əlindən verdiyi pul-paranı geri istəmək təşəbbüsü göstərir.

Əli Abbasov milyonları verib canını qurtarır.

Bir il öncəyədək "dövlət içindəki dövlət"in başçısı Eldar Mahmudov barədə də cinayət işi yoxdur, sadəcə, adam bunker dustağıdır.

Bəs insafdandırmı ki, toyuq, telefon, siqaret oğruları türmədə cəza çəkdikləri halda milyardları milyon-milyon talan edənlər azadlıqda gəzir, öz komfortlu həyatlarını yaşayır, sadəcə, xalqdan oğurladıqları böyük sərvətin bir hissəsini geri qaytarırlar?

Sovet vaxtı bu adamların hamısını Cinayət Məcəlləsinin 88.1 maddəsi ilə mühakimə edər və istisnasız güllələyərdilər. İndi isə çoxlarına heç 1 sutka cəza da kəsmirlər.

# Rusiya-Ermənistan birgə qoşunu Naxçıvanla sərhəddə

## Ekspertlər real təhlükə və onun mümkün nəticələri barədə danışdılar...

**Rusiya və Ermənistanın birgə hərbi birləşmələrin yaradılması ilə bağlı qərarı birmənalı şəkildə Azərbaycanı təhdid edən addım kimi dəyərləndirilir. Hələlik nə Xarici İşlər, nə də Müdafiə nazirlikləri səviyyəsində bu məsələyə hər hansı münasibət bildirilməyib. Dünən də hər iki qurumdan mövqe almaq cəhdimiz müsbət nəticə vermədi.**



Vahid hərbi birləşmələrin yaradılması ilə bağlı razılaşma çərçivəsində Ermənistanın 4-cü korpusu vahid orduya qatılacaq. Publika.az xəbər verir ki, 4-cü korpusun yerləşdiyi ərazi diqqət çəkir. Ermənistan mediasının məlumatına görə, bu korpus Naxçıvanla sərhəddə olan "Vayos Dzore" ərazisində yerləşir. Həmçinin bura Dağlıq Qarabağ bölgəsinə yaxındır. Maraqlıdır ki, birgə qoşun birləşməsinin Naxçıvanla sərhəddə yerləşdirilməsi hətta ermənilərin də diqqətini çəkib və yerli mətbuat "Niyə məhz Naxçıvanla sərhəddə" sualına cavab axtarır.

**Politoloq Elçin Mirzəbəyliyə görə, bu kimi məlumatlar Moskvanın təzyiqlərinin açıq müstəviyə keçirməsindən xəbər verir:** "ABŞ-dakı seçkilərdən sonra yaranmış vəziyyət, yeni prezident Trampın xarici siyasətinin prioritetlərinin aydın olmaması, Qərbin Ukrayna ilə bağlı nümayiş etdirdiyi riyakar və qorxaq mövqe, Gürcüstanda, Moldovada və Bolqarıstanda keçirilən seçkilərin nəticələri postsovet məkanında və Şərqi Avropada qlobal güc balansının Rusiyanın xeyrinə dəyişməsi mənzərəsini yaradıb. Moskva isə bu vəziyyətdən yararlanmaqla nüfuz dairəsini daha da genişləndirməyə və möhkəmləndirməyə çalışır. Rusiyanın bu davranışları ona qarşı real təzyiq vasitələri işə düşməyənədək davam edəcək. Son hadisələr Rusiyanın Qarabağ münaqişəsində tərəf olduğunu daha qabarıq şəkildə ortaya qoyur".

**E.Mirzəbəyli hesab edir ki, bunu Rusiyanın özü istəyir:** "Yəni Moskva atdığı addımlarla açıq şəkildə mesaj verir ki, Rusiya bu münaqişədə tərəfdir və danışıqlar da məhz işğalçının əsas "paya" sahib olan ortağı kimi onunla aparılmalıdır. Bu davranışları ilə Rusiya artıq siyasi manevrlər və irili-xırdalı bazarlıqlar üçün yer qoymur. Bunu şərtləndirən amillərdən biri də Türkiyənin Qərblə münasibətlərində yaranmış dərin ziddiyyətlərdir. Diqqət yetirsəniz, Kremlin sözçüsü funksiyasını yerinə yetirən Vladimir Jirinovski Türkiyənin İraqda və Suriyada haqqı olduğunu deyir. Yəni Ankaranın Rusiya tərəfindən "müəyyənləşdirilmiş" maraqlarının xəritəsini cızır. Bununla demək istəyir ki, sənin Qafqazda və Balkanlarda işin yoxdur, get o "ərəb bataqlığı", o da sən... Təhlükəli olan məqam da elə budur. Çünki Rusiya-Türkiyə münasibətlərinin iqtisadi maraqlara söykənən sabit inkişafı Azərbaycanı qane etsə də, Ankara ilə Moskvanın geosiyasi razılaşmaları heç vaxt Azərbaycanın mənafeyinə xidmət etməyib və bundan sonra da edəcəyi inandırıcı görünmür. Ankaranın Rusiyanın nişan verdiyi "nüfuz məkanı" ilə razılaşması və bu istiqamətdə real addımlar atması isə çox böyük problemlərə zəmin yarada bilər. Çünki Moskvanın nişan verdiyi məkanda Rusiya mütləq söz sahibi deyil". Politoloqa görə, Rusiya indiki şəraitdə Cənibi Qafqazdakı nüfuz dairəsini heç kimlə paylaşmaq istəmir, əksinə, bu coğrafiyaya təsir etmək imkanı olan irili-xırdalı bütün gücləri neytrallaşdırmağa çalışır: "Olduqca təhlükəli bir vəziyyət yaranıb!"

**Ekspert hesab edir ki, indiki halda Ankaranın ənənəvi müttəfiqləri ilə münasibətlərini tənzimləməsinə və regionda qüvvələr nisbətinin balanslaşdırılması üçün hərəkətə keçməsinə ehtiyac var:** "Türkiyənin Azərbaycanla birgə hərbi birləşmə yaradacağı indiki vəziyyətdə inandırıcı görünmür. Ankara Moskvanı qıcıqlandıracaq heç bir addım atmaq niyyətində deyil. Bu baxımdan, çox mürəkkəb bir mərhələdən keçdiyimizi düşünürəm. Eyni zamanda 2017-ci ilin ikinci yarısından etibarən Rusiyaya qarşı real təzyiqlərin həyata keçirilməsi ehtimalının olduğu qənaətindəyəm".

**"Ümumiyyətlə, Naxçıvanı Qarabağ münaqişəsinə qatmaq ermənilər və onların havadarlarının çoxdankı istəyidir". Bu fikirlər isə politoloq Arzu Nağıyevə məxsusdur. Onun sözlərinə görə, burada artıq söhbət Dağlıq Qarabağdakı qoşunların təmas xəttindən deyil, Azərbaycanla Ermənistanın sərhədindən gedir:** "Yəni bu sərhəddə hər hansı təxribat baş verərsə, Azərbaycan tərəfi cavab verməlidir. Bu isə artıq KTMT-nin üzvü olan Ermənistana qarşıdır. Buna görə də Rusiya belə variantlara əl atır. Eyni zamanda Bakı-Tiflis-Qars dəmir yolunun açılışı reallaşdıqca Rusiya öz mövqelərini daha da möhkəmlətməyə çalışır. Burada da əsas bəhanə ondan ibarətdir ki, bu dəmir yolu vasitəsilə Naxçıvan tam şəkildə blokadadan çıxa bilir". **A.Nağıyevə görə, Azərbaycanın Türkiyə ilə qoşun birləşməsini yaratması NATO ilə razılaşdırılmalıdır:** "Yəni ikitərəfli hərbi müqavilələr ola bilər və belə bir müqavilə mövcuddur. Lakin geniştərkibli qurumlar üçün bu kifayət deyil. Rusiya NATO ilə sərhədin məhz Türkiyə-Ermənistan sərhədindən keçdiyini nəzərə alaraq, bu istiqamətdə təhdidin olacağından çəkinir. Ermənistanla həmrəylik nümayişinin əsas məqsədlərindən biri budur. Son anda isə bu regionda silah-sursat və şəxsi heyətin həddən artıq çoxalmasına və təhdidlərə, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanmasına gətirib çıxara bilər".

❑ E.PAŞASOY

# Azərbaycan hərbi xərclərini 1 milyard manat artırır



**Azərbaycanın "2017-ci ilin dövlət büdcəsi haqqında" qanun layihəsinin xərclər hissəsinə dəyişiklik edilib.**

"Report" xəbər verir ki, yenilənmiş layihədə müdafiə xərcləri 63,6% və yaxud 1,027 mlrd. manat artırılaraq 1,615 mlrd. manatdan 2,642 mlrd. manata çatdırılıb.

Bu vəsaitin 1 269,9 mln. manatı müdafiə qüvvələri, 111,9 mln. manatı milli təhlükəsizlik, 2,6 mln. manatı müdafiə və təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar, 1 257,6 mln. manatı isə digər kateqoriyalara aid edilməyən sahələrin payına düşüb.

"Müharibə şəraitində yaşayan dövlətimizin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin təmin edilməsi xərclərinə 2017-ci ilin dövlət büdcəsi xərclərinin 16,7%-i həcmində və ya 2,8 mlrd. manat vəsait nəzərdə tutulub ki, bu da cari illə müqayisədə 77,0 mln. manat və ya 2,9% çoxdur", - deyə layihənin təqdimatında qeyd olunub.

Xatırladaq ki, 2016-cı ilin təsdiqlənmiş büdcəsində müdafiə xərclərinin proqnozu 1 mlrd. 838 mln. manatdır. Bu vəsaitin 1,723 mlrd. manatı müdafiə qüvvələri, 108 mln. 895 min manatı milli təhlükəsizlik, 2 mln. 422 min manatı müdafiə və təhlükəsizlik sahəsində tədqiqatlar, 3 mln. 022 min manatı isə digər kateqoriyalara aid edilməyən xərclərin payına düşüb.

Daha sonra "Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsi haqqında" Qanuna dəyişikliklər eilib və Azərbaycan 2016-cı ildə müdafiə xərclərini 391 mln. manat və ya 21,3% artırıb. Buna səbəb müdafiə qüvvələrinə xərclənəcək vəsaitin 391 mln. manat artırılması olub.

YENİ MÜSAVAT
N 256 (6577) 17 noyabr 2016

# Prezident Əliyevin "muxtariyyət" təklifinə Sərkisyandan reaksiya - "Ərazi bütövlüyünüzü tanıyırıq..."

## Düşmən ölkə başçısının rus jurnalistə müsahibəsindəki bəzi ilginc və sətiraltı mətləblərin pərdəarxası; Sərkisyan yenə "atı arabanın arxasına" bağlamaq istədi, öz xalqına "buna da hazır ol" mesajını verdi...

**Rusiyanın "Sputnik" beynəlxalq informasiya agentliyinin direktoru Dmitri Kiselyov Azərbaycan prezidenti İlham Əliyevdən sonra bu dəfə Ermənistan prezidenti Serj Sərkisyandan geniş müsahibə götürüb. Müsahibədəki cavablardan Ermənistan prezidentinin kifayət qədər ürkək davranışı aydın sezilir.**

O sırada Sərkisyan bir az da qorxu və xof içində Azərbaycanın Ermənistan üzərində iqtisadi və hərbi üstünlüyünü etiraf edib. Onun Ermənistanın silahlanma yarışında ölkəmizlə rəqabət qabiliyyətində olmadığını, Azərbaycanın maliyyə potensialının böyük olduğunu söyləməsi də xüsusi diqqət çəkir.

Sərkisyan bu üzdən ölkəsinin Rusiyanın hərbi köməyinə ehtiyacı olduğunu söyləməklə Ermənistanın vassal bir ölkəyə çevrilməsinə bir növ bəraət qazandırmağa çalışıb. Halbuki Ermənistanın düşdüyü indiki ağır vəziyyətin tək səbəbi - qonşu Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarıdır, Dağlıq Qarabağ və ətraf 7 rayonu işğal altda saxlamasıdır.

*****

"Hesab edirəm ki, bu, məcburi addım idi və hansısa formada regionda hərbi situasiyanı balanslaşdırmaq məqsədi daşıyırdı. Sirr deyil ki, Azərbaycan son bir neçə ildə müntəzəm olaraq ən yeni silahlar alıb. Bizim Azərbaycan kimi imkanımız yoxdur. Mən maliyyə imkanlarını nəzərdə tuturam. Lakin biz həmişə "antizəhər" tapmağa, situasiyanı balanslaşdırmağa çalışmışıq... Əlbəttə, insani baxımdan yaxşı olardı ki, belə sistem olmasın, ancaq sən məcbur olanda belə addıma gedirsən". Bu sözləri Sərkisyan "İsgəndər" raketləri ilə bağlı danışarkən deyib.



Onun cavablarında ən çox diqqət çəkən bir neçə digər məqam da var. Onlardan biri Qarabağ münaqişəsinin nizamlanması üçün kompromislərin mümkünlüyü ilə bağlıdır. Erməni prezident deyib ki, Dağlıq Qarabağ probleminin nizamlanması yalnız kompromislər və Minsk Qrupunun işləyib hazırladığı üç prinsip əsasında həll edilməlidir: ərazi bütövlüyü, xalqların öz müqəddəratını təyin etməsi və güc tətbiqindən imtina.

Ardınca o, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını deyib. **"Biz Azərbaycanın da ərazi bütövlüyünü tanıyırıq. Ancaq hesab edirik ki, Dağlıq Qarabağ probleminin həllində xalqların öz müqəddəratını təyin etməsi hüququ da nəzərə alınmalıdır"** - Sərkisyan qeyd edib və beynəlxalq hüququn təməl prinsiplərini öz bildiyi kimi şərh edərək, guya bu iki hüququn bir-birinə zidd olmadığını söyləyib.

*****

Əslində isə Sərkisyan əlbəttə ki, blef edib. Çünki yaxşı bilir ki, ölkələrin ərazi bütövlüyü bütün başqa prinsiplərdən öndədir. Belə olmasaydı, yəni ərazi bütövlüyü ölkələrin razılığı olmadan dəyişdirilsəydi, indi dünya böyük bir xaos içində idi, Yer kürəsini qanlı müharibələr, etnik-ərazi münaqişələri bürümüşdü. Çünki dünyadakı 2 min xalqın cəmi 200-nün müstəqil dövləti var.

Məsələ də ondadır ki, öz müqəddəratını təyin eymə hüququnun reallaşması üçün öncə həmin ölkənin, dövlətin, xalqın, konstitusiyasının razılığı olmalıdır. Azərbaycanın, onun xalqının, hakimiyyətinin və konstitusiyasının Dağlıq Qarabağla bağlı mövqeyi, gedə biləcəyi ən böyük kompromis isə bəllidir. Bunu son olaraq prezident İlham Əliyev həmin o Kiselyova müsahibəsində birmənalı şəkildə ortaya qoyub - "muxtar respublika" statusu. Bundan da ədalətli kompromis - əgər nəzərə alsaq ki, erməni xalqı öz müqəddəratını çoxdan təyin edib?!

Prezidentin təklifinin mahiyyəti də odur ki, Ermənistan müharibə istəmirsə, Azərbaycanla bahalı silahlanma yarışında ola-qalan iqtisadiyyatının da çəkməsini, olan-qalan əhalisinin tələf olması və ölkədən didərgin düşməsini arzulamırsa, o zaman mümkün olmayan, maksimalist tələblərindən təcili əl çəkməlidir.

Bu mənada İrəvanın rəsmi səviyyədə Azərbaycanın ərazi bütövlüyünü tanıması yaxşı haldır, irəliləyişdir. Eyni zamanda İlham Əliyevin muxtariyyət təklifinə maraqlı bir cavab, erməni cəmiyyətinə isə bizcə, xəfif bir mesajdır ki, beynəlxalq hüquq Ermənistanın tərəfində deyil. Başqa sözlə, "məni *(Sərkisyanı-red.)* çox sıxmayın, məndən asılı az şey var və hər şeyə də hazır olun".

Fəqət, bunlar yetərli də deyil, ona görə ki, davamı gəlməlidir. Davam da odur ki, işğalçı qüvvələr beynəlxalq sənədlərin də tələb elədiyi kimi, Azərbaycan ərazisindən qeyd-şərtsiz çıxarılmalıdır. Yerdə qalanı Bakı ilə Xankəndi arasında həll oluna bilən məsələdir. Qısası, "ərazi bütövlüyünüzü tanıyırıq"ın ardınca başqa heç nə, heç bir şərt-filan, xahiş-minnət gələ bilməz, yalnız nöqtə!..

*****

Yaxud da Sərkisyanın müsahibədə işlətdiyi belə bir fikir: "Bizim milli ideyamız nədir? Güclü, möhkəm dövlət olmaq. Nə Azərbaycanla, nə də Türkiyə ilə heç bir problemi olmamaq". Olsun. Kim istəməz ki? Fəqət, heç kim Ermənistanın işğalçı kimi güclənməsini istəməz. Necə ki, bu, heç mümkün də deyil.

Əslində Sərkisyan bu yerdə yenə "atı arabanın arxasına bağlamağa" səy edib. Axı Azərbaycanla, Türkiyə ilə problemsiz münasibətlər olmadan Ermənistan necə güclü, möhkəm dövlət ola bilər? Yaxud ola bilirmi? Ola bildimi ötən 25 ildə? Rusiya ilə hərbi-siyasi müttəfiqlik necə, işğalçı ölkənin iqtisadi, hərbi potensialını, təhlükəsizliyini artırdımı?

Adama deyərlər, Azərbaycan və Türkiyə ilə problem istəmirsənsə, o zaman problem yaratma! Yolu çoxdan bəlli: bu iki böyük qonşu dövlətə qarşı əsassız torpaq və soyqırım iddialarından vaz keç! O zaman Rusiyaya sığınmağa, onun marioneti və forpostu olmağa, hətta Rusiyadan giley-güzar etməyə də lüzum qalmayacaq. Ermənistanın çiçəklənməsi, erməni xalqının rifahı isə sadəcə, zaman məsələsi olacaq.

Azdır?..

❑ **Analitik xidmət**

# ABŞ emissarını Bakıya göndərir- Obamanın son cəhdinin pərdəarxası

## **Elxan Şahinoğlu:** "Əgər 8 ildə Obama administrasiyası Azərbaycanla münasibətləri düzəldə bilmədisə, son bir ayda nə edə bilər"

**Gələn həftənin əvvəlində ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Bricit Brinkin Azərbaycana səfəri gözlənilir. Bu barədə "Turan"a ABŞ-ın Azərbaycandakı səfirliyindən bildiriblər. B.Brinkin ölkə rəhbərliyi ilə görüşləri olacaq. Görüşlər zamanı ikitərəfli əməkdaşlıq, təhlükəsizlik məsələləri , o cümlədən Dağlıq Qarabağ münaqişəsinin nizamlanması diqqət mərkəzində olacaq.**

Barak Obama hakimiyyətdə olduğu son 8 ildə Azərbaycanla ABŞ arasında əsasən soyuq münasibətlər olub. Doğrudur, bəzi zamanlarda hər iki ölkə arasındakı əlaqələrin istiləşdiyinin şahidi olmuşuq, lakin bunun ömrü o qədər də uzun olmayıb. Xüsusilə ötən ilin sonlarında ABŞ konqresmeni Kristofer Smit tərəfindən hazırlanan "Azərbaycan Demokratiya Aktı 2015" layihəsi hər iki ölkə arasındakı əlaqələrə ciddi zərbə vurmuşdu. Bu ilin əvvəllərindən başlayaraq, Azərbaycan tərəfi münasibətlərin müsbətə doğru dəyişməsi istiqamətində ciddi səylər göstərsə də, bunun o qədər də faydalı nəticələri olmadı. Son aylarda da münasibətlərdə soyuqluq nəzərə çarpır. Bütün bunları önə çəkərək, siyasi ekspertlər xanım Brinkin ölkəmizə səfərini Obama administrasiyasının Azərbaycanla münasibətləri düzəlmək istiqamətində son cəhdi kimi qiymətləndirirlər.



Bricit Brink

Politoloq Elxan Şahinoğlu B.Brinkin Azərbaycana səfərini əhəmiyyətsiz hesab edir: "Obamanın hakimiyyəti dövründə bura göndərilən diplomatlar ciddi uğur qazanmadılar. Bunun obyektiv və subyektiv səbəbləri oldu. Qarşıdakı bir ayda Obama Ağ Evi tərk edəcək və yeni administrasiya formalaşacaq. Bu baxımdan, bu səfərin ciddi əhəmiyyət kəsb edəcəyini düşünmürəm. Əgər 8 ildə Obama administrasiyası Azərbaycanla münasibətləri düzəldə bilmədisə, son bir ayda nə edə bilər? Azərbaycan hakimiyyətə də buna ümid etmir. Güman etmirəm ki, həmin diplomatı Azərbaycan hökuməti isti qarşılasın və nəsə vədlər versin. Ola bilər ki, xanım diplomat ölkəmizə səfərində yeni vədlər verəcək və ABŞ-da formalaşmaqda olan yeni hakimiyyətin siyasəti dəyişməyəcəyini bildirəcək. Artıq hər kəs münasibətləri Tramp administrasiyası üzərində qurmağa köklənib. Heç kəs Obama hakimiyyəti ilə münasibətlər qurmaq istəmir. Hazırda Obamanın özü Avropa ölkələrinə səfər edir. Onun açıqlamalarına artıq ciddi əhəmiyyət verən yoxdur. Çünki Donald Tramp fərqli açıqlamalar verib. NATO ilə bağlı, eləcə də, Rusiya ilə dostlaşacağını deyib. Hamı gözləyir ki, o gəlib nə edəcək. Obama nə desə də əhəmiyyəti yoxdur, onsuz da bir ay sonra gedir. Bu baxımdan, Azərbaycana göndərilən diplomatın səfərindən nəsə gözləmək əbəsdir".

**Politoloq səfərin ABŞ seçkilərindən sonraya təsadüf etməsinə də toxundu:** "Yəqin ki, bu diplomatları tək Azərbaycana deyil, bir çox ölkələrə göndərirlər. Mesaj da ondan ibarətdir ki, "narahat olmayın, siyasət dəyişməyəcək". Hər ölkə Tramp hakimiyyəti ilə münasibətləri necə quracağı ilə bağlı baş sındırır, nəinki indiki Obama hakimiyyəti ilə. Belə səfərlər bəlkə də indinin özündə digər ölkələrdə də həyata keçirilir. Sadəcə, bizim məlumatımız olmaya bilər. Özü də Azərbaycana göndərilən diplomat elə də böyük statuslu diplomat deyil. Adətən ölkəmizə kimi göndərirlər? Müavinin köməkçisini, yaxud müavinin müavininin köməkçisini. Onlar nəyisə müəyyən edəcək şəxslər də deyillər. Sadəcə, verilən mesajları Azərbaycana çatdırırlar. Onların hansısa bir ideya ortaya qoymaq səlahiyyətləri də yoxdur. Bu cür diplomatları dünyanın müxtəlif ölkələrinə göndərirlər ki, münasibətlərdə fasilələr yaranmasın, yeni administrasiya hakimiyyətə gələnə qədər".

**E.Şahinoğlu ABŞ-Azərbaycan münasibətlərinin çox zaman soyuq olmasında Rusiya amilini önə sürənlərlə razı deyil:** "ABŞ-Azərbaycan münasibətlərinin soyuq olmasının başqa səbəbləri var. Son dövrlər hakimiyyət ehtiyat etdi ki, Amerika burada dəyişiklik etmək istəyir. Bu məqsədlə AzadlıqRadiosu, ABŞ-ın fondları qapandı. Tramp respublikaçıdır və respublikaçılar adətən geosiyasi maraqlardan çıxış edirlər. Düşünmürəm ki, Amerikanın yeni hakimiyyəti ölkəmizlə əlaqələrə ciddi önəm verəcək, Dağlıq Qarabağ məsələsinin həllində ciddi təkliflərlə çıxış edəcək. Hər şey yenə də öz axarı ilə gedəcək. Yeganə müsbət amil o ola bilər ki, Azərbaycan qazının Avropaya çatdırılmasında ölkəmizə dəstək verilər. Azərbaycan hakimiyyətinin münasibətlərdə baxışı da dəyişə bilər. Çünki ölkə iqtidarının Obama və Klintona sərt münasibəti var idi. Trampla Azərbaycan yeni təmas nöqtələri qurmağa çalışılacaq. Ən böyük gözlənti o olacaq ki, Trampın 4 illik hakimiyyəti dövründə Azərbaycan prezidenti bir dəfə Vaşinqtona rəsmi səfərə dəvət ediləcək. Xanım diplomatın Bakıya gözlənilən səfəri və Obamanın xarici ölkələrdə olması köhnə administrasiyanın sağollaşması anlamını daşıyır. İnandırmağa çalışırlar ki, yeni hakimiyyətin siyasəti ABŞ-ın köhnə ənənəvi siyasətindən kənara çıxmayacaq. Açığı, belə səfərlər Trampa problemlər yaradır. Məsələn, Obama səfərlərində Trampın Amerikanın siyasətini dəyişməyəcəyini, NATO ilə bağlı dediklərini yerinə yetirməyəcəyini deyir. Amma bilmir ki, o necə siyasət yürüdəcək. Klintonun məğlubiyyətini hələ də Obama həzm edə bilməyib. Ona görə Trampın problemlərini artırmaq istəyirlər".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 256 (6577) 18 noyabr 2016

# Akif Çovdarovun doğulduğu kənddən reportaj

## MTN generalının film kimi həyatı; sabiq idarə rəisinin kəndliləri, uşaqlıq dostları onun barəsində elə şeylər danışdılar ki...



**“Niyə, hansı gizlin səbəbə görə Eldar Mahmudov indiyədək qandallanmayıb, əvəzində bizim Akif Çovdarov içəridə yatır, həə?”**

Marneulinin indiki Alqeti, qədimi Gorarx kəndində eşitdiyimiz bu irad bir müddət qulaqlarımızda uğuldayıb bizə bir xeyli zaman rahatlıq vermədi. Kəndin qədim "Həzrəti Əli" məscidi önünə yığılmış izdihamlı kütlə bir ağızdan elə hey bax bu cümləni təkrarlayıb, sakitləşmirdi. Durmadan, dayanmadan elə hey üstümüzə yeriyirdi. Axır bu axın bizi meydandan sıxışdırıb gətirib çıxardı Akif Çovdarovun ata mülkü qarşısına. Ətrafımıza göz atanda düz lazım olan ünvanın qarşısına gəlib çıxdığımızı bir daha yəqinləşdirdik. Mülkün qapısındakı “Mercedes”in nömrə nişanı sanki dil açıb danışır, sahibinin kimliyini ortaya qoyurdu. Vallah, çox yaddaqalan nömrə idi: MTN-009. Bakıda çox az adam MTN-in, xüsusən Eldar Mahmudovun, yaxın ətrafının 009 nömrəsindən istifadə etdiyini bilməz. Bakıda maşınının nömrəsinə MTN sözünü yazdıra bilməzsən. Qanunlar icazə vermir. Gürcüstanda isə qanunlar dövlət büdcəsinin doldurulmasına xidmət edir. Pulunu ver, get adını yazdır, vur maşınının nömrə yerinə...

Hazırda Akif Çovdarovun doğma kəndi Algetdəyik. Biz burdaykən, Bakıda, daha dəqiqi, Sabunçu Rayon Məhkəməsində Akif Çovdarovun məhkəməsi keçirilir. Onu hansı cinayətlərdə ittiham etmirlər ki?

Adamların qanunsuz həbsi, rüşvət alma, mənimsəmə, vəzifə səlahiyyətlərindən sui-istifadə kimi ittihamlarla üz-üzə qalıb o. Qəzetlərdə, saytlarda, hətta TV-lərdə də barəsində “qanlı general”, “odioz general”, “qəssab oğlu” kimi ifadələr işlədilməkdədir.

Bəs generalın doğma kəndində barəsində nə düşünürlər? Yaxınları, doğmaları, qohumları, qonşuları onun haqqında nə deyir, nə danışır?

Gürcüstana jurnalist səfərimiz çərçivəsində həm də bu suallara cavab almaq qərarına gəldik.

**Çovdarovların mülkü qarşısındakı “Həzrəti Əli" məscidi önünə sorağımızı eşidib xeyli adam toplanmışdı. İynə atsan, yerə düşməzdi burda. Söhbətə qoşulanlardan biri, Akif Çovdarovun tələbəlik dostu Cavanşir İsmaylov barəsində görün bir nə dedi:**

- Əvvəlcə, hamı kimi, Çovdarov atasının istəyini həyata keçirdi. Bakıya getdi. Politexnik İnstitutuna daxil olub “Nəqliyyatın avtomatlaşdırılmış istismarı” sahəsində ixtisaslaşdı.

Akifin sevimli filmləri vardı. Bax o filmlərin qəhrəmanları idi onu Rostova, ordakı Ali Milis Akademiyasına gətirib çıxaran. “İstintaq davam edir”, “Onu bağışlamaq olarmı” filmlərinə dönə-dönə baxmışdı. Filmlərin qəhrəmanları onu uzaq Rusiyada əzmlə təhsil almağa sövq etmişdi. Milis məktəbini fərqlənmə diplomu ilə bitirdi. Qayıdıb Bakıda, Böyük Şordakı əmək-islah koloniyasında işlədi, sonra “Narkobiznes”də rəis müavini kürsüsündə əyləşdi.







**“Ona Tarzan deyərdik. Saçları uzun idi, çiyninə tökülürdü, eynən filmdəki Tarzana oxşayırdı”**

Yadıma düşmüşkən deyim. Bakıda Avropa Oyunları keçirilən günlərdə mən övladıma toy edirdim. Əlbəttə ki, uşaqlıq dostumu da lap birinci dəvət etmişdim məclisə. Akif gəlmədi, xəbər göndərdi ki, prezidentin qatılacağı bir möhtəşəm idman oyunu keçirilir, təhlükəsizliyə cavabdehəm, üzürlü say. Deməyim odur ki, o, işinə bağlı adam olub, heç vaxt xəyanət etməzdi. Belə bir adamı həbs edib, ağır xəstəliklərini nəzərə almamaq düz deyil, vallah.

Biz onunla lap uşaqlıqdan dostluq edirik. Aramızda onu Tarzan kimi çağırırdıq.

***- Bəs niyə o, aranızda Tarzan ayaması, adı ilə tanınır?***

Daşdan xəbər çıxdı bu vaxt, adamlardan çıxmadı. Sualımız göydən asılı qaldı bir müddət. Cavabımız, ön sıralardakılardan deyil, arxa sıralardan gəldi, nəhayət. Bir də gördük kütlə tən ortadan ikiyə ayrıldı. Arasından birisi çıxıb özünü təqdim etdi.

- Yaz dəftərinə adımı - Aslan Gorarxlı. 8 kitab müəllifiyəm. Çelyabinskidəki Azərbaycan diasporu rəhbərlərindənəm. Akif Çovdarov, kəndimizdən çıxmış ilk general kimi, hamımızın fəxridir. Çelyabinskdə 200-dək soydaşımızın evini onun general geyimindəki şəkli bəzəyir. Şəkilləri böyüdüb hamıya paylayan mənəm. Vallah, o yaxşı adamdı. Kəndə gələrkən əvvəlcə heç evinə dəyməz, siftə gedib kəndin kasıb çayxanasında əyləşərdi.

**Kütlə ürəklənib cuşa gəldi bu vaxt. Arxa sıralardan çıxmış bir başqası, qarşılarındakıları itələ-itələyə önə atıldı.**

- Yaz adımı dəftərinə - Göyüşov Aqil. Bizim Tarzanın çayxanada əyləşdiyi stul üzərində, inan, siz heç vaxt oturmazdınız. Qorxardınız ko-ra-zad batsın bədəninizə. Tarzan isə oturardı. Durarkən tək öz hesabını deyil, əlini cibinə atıb bütün digər müştərilərin borcunu da ödəyərdi adətən. Belə görmüşük həmişə.

Bu vaxt görürəm ön sıraların arxasından bir qabarlı əl irəli uzandı. Bir topa kağız-sənədi əlimə dürtdü.

- Bax bunu da, xahiş edirəm, olduğu kimi dərc edin. Bütün kənd camaatı son nəfərinədək imza atıb bu sənədin altına.

**“Oxuyuram, qəzetində yazmağını da xahiş edirəm” - deyən ağsaqqal məktubda yazılanları xırdalayır:**

- Biz Gürcüstanda yaşayan azərbaycanlılar başqa dövlətin vətəndaşı olsaq da, daim gözümüz Azərbaycanda, ulu öndərin davamçısı İlham Əliyevdədir. Akif Çovdarov vəzifədəykən Gürcüstanda yaşayan azərbaycanlılar üçün bir ümid, inam yeri olub. Yüzlərlə problemimiz məhz onun müdaxiləsi ilə öz həllini tapıb. Təbii ki, heç vaxt unutmayıb ki, bütün bu xeyirxah işləri o, məhz prezidentin ona verdiyi dəstək əsasında edib. O, bizdən həmişə tələb edirdi ki, İlham Əliyevin ətrafında sıx birləşək. Bizlər bir il dözdük. Akif Çovdarovun həbsinə heç bir reaksiya vermədik. Bu Akif Çovdarova qarşı laqeydliyimizdən, ittihamlara inandığımızdan deyil. Sadəcə, ölkənin ədalətli bir rəhbəri olduğunu bildiyimiz üçün bir xeyli gözlədik. İstəyimiz budur ki, Akif Çovdarovun səhhətindəki təhlükəli xəstəliklərə görə istintaqın gedişini öz nəzarətinizə götürəsiniz. Bax, bu məktubu biz göndəririk. Ancaq bilirik ki, məktub gedib ünvanına çatmır. Məktubu 2000-dən çox həmkəndlimiz imzalayıb. Hələ çoxları da imzalamaq arzusundadır. Məktubu tez göndərdik ki, yaranmış gərgin vəziyyətə təcili müdaxiləniz olsun".

**Tələblər bitmirdi. Hamı bir ağızdan Akif Çovdarov haqda danışır, ittihamları yaxına belə buraxmaq istəmirdi.**

“Akif nə edib? Kimin toyuğuna daş atıb? İşdən çıxarıblar, əl çəksinlər, gəlib otursun yurdundakı mülkündə - bizlərin istəyi budur”.

Fayla yerləşdirilən qalın sənəd topasını götürüb basdım çantama. Camaata dedim ki, bəs bu sənədlərlə tezliklə dövrü mətbuatda tanış ola biləcəksiz. Sonra keçdim cavabsız qalmış əvvəlki sualıma.

***- Bəs Tarzan adını nə vaxt qazandı o sizin dilinizdən?***

Cavabım yenə də yubandı. Axır, yaşlı ağsaqqallardan biri aramızdakı sükut buzunu qırmağa müvəffəq oldu.

- Çiyninə düşən uzun saçları Tarzana oxşadardı o vaxtlar Akifi. Kinodakı Tarzandan bir vaxtlar, inan, bax, bu Əli yolu haqqı, ayıra bilməzdik biz onu. Ekrandakı Tarzanı həmişə Akifə oxşadardıq.

Kələfin ucunu burda tapıb onu day əlimizdən buraxmamaq qərarına gəldik. Camaatla sağollaşıb üz tutduq Akif Çovdarovun vaxtilə təhsil aldığı ünvana. Rəhmətlik atası Teymurxan Çovdarovun adını daşıdığı 1 saylı kənd orta məktəbinə.

***

2015-ci ildə sonuncu məzuniyyətini Akif Çovdarov öz doğma kəndində - Algetdə keçirir. Gecəykən, ətrafında dost-tanışı yaxınlaşır məktəb qapısı həndəvərinə. Ətrafına, yan-yörəsinə diqqətlə boylanır. Sonra verdiyi bir əmrlə qapıdakı köhnə dostlarını xeyli çaşdırır, vallah.

- Başlarını kəsin. Bir də deyirəm, başlarını kəsin bunların, vəssalam.

Ay işığının nurunda deyilmiş bu sözlər əvvəlcə hamını qorxudur. Müəllimlər çaşıb bir müddət nə edəcəklərini anlamayırlar. Akifə də elə bu lazımmış sanki. Əvvəlcə o, bu pauzasının ömrünü bir xeyli uzadır. Lap axırda rəhmə gəlib sözlərini başqaları üçün xırdalayır.

- Deyirəm, bu ağacların başını kəsin də... Gövdələri incədi bu sərvlərin. Yel əsincə, qırılıb aşacaqlar. Kəsin deyirəm sizə.

**Hacıyev Əmiraslan Aslan oğlu, fizika-riyaziyyat müəllimi, o hadisəni indi belə xatırlayır bizimçün.**

- Ağıllı, savadlı, mərifətli adamdı. Gördüyünüz kimi, başı bədəninə ağırlıq edən ağacları yaxşı tanıyırdı o.

Çoxdan unutduğumuz məktəb zəngi ətrafa səs salıb bizi köhnə xatirələrin cəngindən qurtarır. Qalxırıq məktəbin müəllimlər otağına. Sorağımızı eşidib bura gələnlərin sayı az deyil. Aralarında Akif Çovdarovun doğma bacıları Qənirə, ailənin sonbeşiyi Fəridə də var. Əks istiqamətlərdə əyləşib heç danışmırdılar. Əvvəlcə, həəə, vəziyyət belə idi. Söhbət qızışdığı vaxt bacısı Qənirə özünü saxlaya bilmədi.

*(ardı gələn sayımızda)*

❑ Həmid HERİSÇİ,
❑ Elşən BALAXANILI
❑ Fotolar müəlliflərində




**“Akif kənddə olanda birdən dedi ki, kəsin bunların başını. Hamı çaşıb qalmışdı”**

YENİ MÜSAVAT
N 256 (6577) 18 noyabr 2016

**ABŞ-ın dövlət katibi postuna namizədlər məlum olub. AzadlıqRadiosunun məlumatına görə, prezident Donald Trampın dövlət katibliyi postuna namizədləri Nyu-Yorkun keçmiş meri Rudolf Culiani və ABŞ-ın BMT-dəki keçmiş səfiri Con Boltondur. Tramp yeni dövlət katibinin adını gələn həftə açıqlayacaq.**

# ABŞ-ın yeni dövlət katibi "Azərbaycan dəstəkçisi" ola bilər

## Ekspert Şahin Cəfərlinin fikrincə, dövlət katibi postuna hər iki real namizəd Azərbaycana uyğundur

Mətbuatın yazdığına görə, Con Boltonun sərt tərzi onun Konqresdə təsdiqinə mane ola bilər. C.Bolton İrana qarşı sərt çıxışları ilə məşhurdur. Bir qədər əvvəl Bolton "New-York Post" qəzetində yazıb ki, Trump İranla anlaşmadan imtina etməlidir. Con Bolton 2011-ci ildə etdiyi çıxışında Obama hökumətini Dağlıq Qarabağ münaqişəsində açıq şəkildə Azərbaycanı müdafiə etməyə çağırıb. *(Mənbə: AzadlıqRadiosu).* Bolton deyib ki, ABŞ hökuməti Cənubi Qafqaza daha çox diqqət yetirməlidir. Belə bir adamın dövlət katibi olması təbii ki, Azərbaycanın maraqlarına uyğundur.

Yada salaq ki, indiki dövlət katibi Con Kerri ilə Azərbaycan hakimiyyəti arasında sərt münasibətlər olub. Hətta hökumət mediası onu ermənipərəstlikdə ittiham edib, barəsində ciddi ittihamlar irəli sürüb. Eyni zamanda Kerri özü də Azərbaycanla münasibətləri yaxşılaşdırmaq haqda düşünməyib, heç vaxt Bakıya səfər etməyib. İndi isə hökumət dəyişir, Trampın rəhbərliyi altında yeni dövlət katibinin Bakıya münasibətinin necə olacağı əsas suallar arasındadır.

**Siyasi şərhçi Şahin Cəfərli deyir ki, Trampın xarici siyasət üzrə köməkçisi olacaq şəxslər daha çox sərt siyasi xətt tərəfdarı kimi tanınırlar:** "Hazırda yeni vitse-prezident Mayk Pensin rəhbərlik etdiyi keçid administrasiyası yeni təyinatlar üzərində çalışır. Xarici işlər naziri funksiyasını yerinə yetirən dövlət katibi vəzifəsi üçün bir neçə nəfərin adı hallanır. Amma bu şəxslər arasında ən şanslı namizəd kimi Culiani və Bolton önə çıxıb".

**Ş.Cəfərli deyir ki, 72 yaşlı R.Culiani respublikaçıların nüfuzlu simalarından olsa da, xarici siyasət sahəsində praktik təcrübəsi yoxdur. Bununla yanaşı, o, kompromislərə meylli olmayan biridir və radikal İslama qarşı sərt mövqeyi ilə seçilir:** "Culiani 1995-ci ildə Yasir Ərəfatı terrorçu adlandıraraq onu Nyu-Yorkda BMT-nin 50 illiyinə həsr olunan konsertdən qovması, 2001-ci ilin 11 sentyabr hadisəsindən sonra terror qurbanlarının ailələrinə yardım fonduna 10 milyon dollar köçürmək istəyən Səudiyyə Ərəbistanı şahzadəsinin təklifini rədd etməsi ilə yadda qalıb. "Reyqanist" kimi tanınan Culiani hərbi xərclərin ciddi artırılmasını zəruri sayır və Obamanı ordunu zəiflətməkdə ittiham edir. Bu günlərdə öz müsahibəsində səsləndirdiyi bəzi fikirlərə diqqət edək. Məsələn, Culiani bildirir ki, Rusiya ilə dialoq aparılmalıdır, lakin ABŞ bu dialoqda yalnız güc mövqeyindən çıxış



Rudolf Culiani



Con Bolton

etməklə öz maraqlarını təmin edə bilər. O, ABŞ hərbi dəniz donanmasının 247 gəmidən ibarət olmasını yetərsiz sayır və iki okeanda eyni anda müharibə apara bilmək qabiliyyətinə malik olmaq üçün gəmilərin sayını 350-yə çatdırmağı zəruri sayır".

**Ş.Cəfərli deyir ki, 67 yaşlı Con Bolton isə respublikaçılar daxilində neokonlara yaxın "American Enterprise Institute" düşüncə mərkəzində çalışır və xarici siyasət məsələlərində çox sərt və müdaxiləçi xəttin tərəfdarıdır:** "Onu ABŞ-da "döyüşkən konservator" da adlandırırlar. Bolton Tehranla imzalanan nüvə anlaşmasının tənqidçilərindən biridir və vaxtilə bu problemin həlli üçün İranın nüvə obyektlərinin bombardman edilməsini təklif edib. Onun Ukrayna məsələsinə yanaşması belədir ki, Rusiyaya qarşı sanksiyalar sərtləşməlidir. Ukraynaya silah verilməli və NATO-ya üzvlüyü sürətləndirilməlidir. Cənubi Qafqaz regionu və Azərbaycanla bağlı bu şəxslərin düşüncələri məna məlum deyil, bu baxımdan konkret fikir söyləmək indiki mərhələdə çətindir".

**Ümumilikdə isə Ş.Cəfərliyə görə, Culiani və ya Boltonun dövlət katibi təyin olunması o deməkdir ki, ABŞ Trampın seçkiqabağı ritorikası ilə üst-üstə düşməyən xarici siyasət yeridəcək:** "İlk mərhələdə Rusiya ilə dialoqun bərpası (xüsusən Suriya məsələsində) gözləniləndir, əslində SSRİ-nin dağılmasından bəri bütün ABŞ prezidentlərinin siyasətinə nəzər yetirsək, görərik ki, hər yeni gələn prezident Rusiya ilə dialoqa başlayıb. Hazırda səlahiyyət müddəti başa çatan Barak Obama administrasiyası da bu baxımdan istisna deyil. Rusiya ilə "reset" siyasəti məhz Barak Obama-Hillari Klinton dövrünə təsadüf edib. Barak Obama və Hillari Klinton və Con Kerri kimi pasifist, mötədil dövlət katiblərinin dönəmində tərəflər anlaşa bilmədisə, respublikaçıların dövründə anlaşmanın baş tutacağına inanmaq çətindir".

**Konkret olaraq Azərbaycana gəldikdə, həmsöhbətimizə görə, iri neft korporasiyalarına yaxın olan respublikaçı administrasiyalar Xəzər hövzəsinin enerji ehtiyatlarının Avropaya nəqlinə hər zaman ciddi maraq göstəriblər və bu məsələdə Azərbaycanla yaxın əməkdaşlıq qurublar. Bu isə Bakının maraqlarına cavab verir:** "Əfqanıstanda keçirilən əməliyyatlar zamanı Azərbaycan ABŞ-ın yaxın tərəfdaşlarından biri olub. Bu baxımdan mən yeni administrasiyanın Azərbaycanla əməkdaşlıqda maraqlı olacağını düşünürəm. Bolton dövlət katibi olarsa, İran məsələsi yenidən aktuallaşa bilər, bu durumda Azərbaycanın ABŞ üçün önəmi artacaq. ABŞ-la İran və Rusiya arasında konfrontasiya güclənərsə, bu, bizim regiondan da yan keçməyəcək. Bu halda respublikaçıların Azərbaycanın qarşısında seçim etmək tələbi qoyması mümkündür və bu amil müəyyən problemlərə səbəb ola bilər".

❑ **Kənan RÖVŞƏNOĞLU**

# "İşğalçı ilə nə "qaynar xətt"?"

## **Bayram Səfərov:** "Erməni prezident öz havadarlarının sözünü deyir"

**Ermənistan prezidenti Serj Sərkisyan yenə də "mələk" donuna girməyə çalışıb. Rusiya KİV-inə müsahibəsində o, bu dəfə təmas xəttində hadisələrə operativ reaksiya verilməsi üçün Bakı ilə İrəvan arasında "qaynar xətt"in yaradılması təşəbbüsü ilə çıxış edib. Sərkisyanın sözlərinə görə, ötən əsrin 90-cı illərinin əvvəllərində belə praktika olub.**

"O zaman mən müdafiə naziri idim və Azərbaycanın müdafiə naziri ilə təcili əlaqə qurmaq lazım olduqda, əlaqə qururduq. Amma bu gün belə bir əlaqə yoxdur", - deyə o bildirib. Bu fikirləri ilə Azərbaycan ərazilərində törədilən cinayətlərdə birbaşa iştirakını etiraf edən erməni prezident öz təklifi ilə şübhəsiz ki, həm təmas xəttində monitorlar quraşdırmaq istəyən ATƏT-ə xoş gəlməyə çalışıb, həm özünü "sülhpərvər" göstərmək istəyib, həm də bu yolla işğalın ömrünün uzadılması şəraitində erməni ordusunun itkilərini minimuma endirmək istəyib. Ancaq onun təşəbbüsü Bakıda ciddiyə alınmır.

**Ermənistan prezidentinin bu kimi iddialarına münasibət bildirən politoloq Elxan Şahinoğlu bildirdi ki, Azərbaycan XİN-in mətbuat katibi səviyyəsində "qaynar xətt" niyə mümkün deyil, məsələnə aydınlıq gətirilə bilər:** "Əks halda, Rusiya ictimaiyyətində yanlış təsəvvür və ya sual yarana bilər ki, Bakı niyə Ermənistan prezidentinin bu cür "müsbət təklifinə" razılaşmır? Ancaq rəsmi səviyyədə Sərkisyanın hər dediyi fikrə reaksiya verilməsinin də əleyhinəyəm. Sərkisyanın nə demək istədiyini biz siyasi ekspertlər ortaya qoymalıyıq. Ona qalsa, prezident İlham Əliyevin elə həmin rusiyalı jurnalistə dediyi "biz Dağlıq Qarabağa Azərbaycan tərkibində muxtar respublika statusu verə bilərik" açıqlaması qarşı tərəfdə ciddi müzakirə predmeti olmadı. Belə olduqda bizim rəsmilər niyə Sərkisyanın "qaynar xətt" təklifinə reaksiya verməlidirlər? Məncə, XİN mətbuat katibinin aydınlaşdırıcı cavabı kifayət edər".



Bayram Səfərov

**Politoloq qeyd etdi ki, Sərkisyanın sözləri Dağlıq Qarabağda Ermənistan ordusunun nəzarəti altında olmasının etirafıdır:** "Çünki söhbət Dağlıq Qarabağ və ətraf rayonlarda atəşkəsin pozulmasından gedirsə, Bakıdan kimsə niyə İrəvana telefon açmalıdır? Məgər bu vaxta qədər "bu məsələni Dağlıq Qarabağ separatçılarının lideri ilə müzakirə edin" deyən Sərkisyan deyildimi? Sərkisyanın bu "qaynar xətt" təklifini əlimizdə rəhbəri tutaraq bir daha Dağlıq Qarabağ və ətraf rayonların məhz kimin işğalı altında olduğunu bəyan etməliyik. O ki qaldı təklifin mahiyyətinə, "qaynar xətti" Azərbaycan və Ermənistan sərhədi boyu həyata keçirmək mümkündür. Çünki Azərbaycanın Ermənistana hücum etmək planı yoxdur. Ancaq Dağlıq Qarabağ və işğal altındakı digər rayonlar üzrə "qaynar xətt" bizim maraqlara cavab vermir. Belə çıxır ki, Azərbaycan ordusu, məsələn, Ağdam və Füzulini işğaldan azad etmək məqsədilə hücuma keçsə, Bakı İrəvanla "telefon zənglərinə" cavab verməlidir ki, yenidən atəşkəs vəziyyətinə qayıdılsın. Bu absurddur".

**Milli Məclisin Təhlükəsizlik, müdafiə və korupsiya məsələləri komitəsinin üzvü Aydın Mirzəzadə modern.az-a deyb ki, görünür, Sərkisyan növbəti dəfə beynəlxalq ictimaiyyəti aldatmağa çalışır. Onun sözlərinə görə, dünyanın heç bir yerində işğalçı dövlətlə torpağı işğal edilən dövlət arasında atəşkəsin pozulmasını araşdıracaq mexanizm yoxdur:** "Ermənistan atəşkəsin pozulmasını yox, Azərbaycanın ərazilərindən qoşunlarını çıxarmağı düşünməlidir. Sərkisyan ancaq bir halda Azərbaycan prezidentinə zəng edə bilər: öz qoşunlarını Azərbaycan ərazilərindən çıxarmağa hazır olduğunu bildirmək üçün".

**Dağlıq Qarabağın Azərbaycanlı İcmasının sədri Bayram Səfərov bildirdi ki, bu məsələlərlə bağlı əsas söz sahibi Ali Baş Komandan və müdafiə naziridir:** "Amma mən inanmıram ki, indiki vəziyyətdə Ermənistan prezidenti ilə bizim rəhbərlik bu cür təmas qursun. Çünki o, bizə düşmən olan adamdır, işğalçıdır, bu günə qədər də düşmənçiliyini edir. Hər dəfə camaatın arasında təxribat xarakterli mövqe qoyur ki, gələcəkdə Azərbaycana şər atsın. Nə qaynar xətt? Atəşkəsi pozan onlardır. Atəşkəsi pozmasınlar, ərazilərimizi tərk etsinlər, Azərbaycan da hansısa cavab tədbirinə əl atmasın. Ermənistan ordusunun Azərbaycanın torpağında nə işi var ki, atəşkəs də pozulur, hələ bizimlə qaynar xətt də yaratmaq istəyirlər?"

**B.Səfərov şübhə etmir ki, erməni prezident öz havadarlarının sözünü deyir:** "Sərkisyan kimdir ki, özbaşına belə hərəkət etsin? Onun müdafiəçiləri var, ona görə də ona hərdən belə fikirləri dedirdirlər. Sərkisyan erməni xalqını aldatmaqla, başını qatmaqla hakimiyyətini uzatmaq istəyir".

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 256 (6577) 18 noyabr 2016



# Təhlükəsizlik şuralarının katibləri Moskvada nələri müzakirə edib?

## Zahid Oruc: "Azərbaycanın yerləşdiyi məkan müxtəlif qüvvələrin hədəfindədir"

**Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri, Təhlükəsizlik Şurasının katibi Ramiz Mehdiyev noyabrın 16-da Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələri Təhlükəsizlik şuraları katiblərinin iclasında iştirak edib. Prezident Administrasiyası rəhbərinin müavini Novruz Məmmədov AzərTAc-a müsahibəsində bildirib ki, MDB-nin yaradılmasının 25-ci ildönümünə həsr edilmiş iclasda ötən dövrdə görülən işlər, əldə olunan nəticələr və gələcək planlar ətrafında geniş fikir mübadiləsi aparılıb.**

Müasir dövrdə müəyyən ölkələrin bir-biri ilə əlaqəli şəkildə fəaliyyətinin vacibliyini vurğulayan Prezident Administrasiyası rəhbərinin müavini deyib: "Bu gün beynəlxalq münasibətlər olduqca mürəkkəbdir, beynəlxalq aləmdə vəziyyət hər gün dəyişir. Bugünkü iclasın da mövzusu müasir dövrdə təhdidlər və çağırışlar, onlara qarşı mübarizə formaları idi. Yüksək səviyyədə təşkil olunmuş görüşdə bir çox vacib məsələlər operativ həllini tapdı. Çox mühüm əhəmiyyət kəsb edən məsələlər ətrafında faydalı fikir mübadiləsi aparıldı. İclasda Prezident Administrasiyasının rəhbəri, Təhlükəsizlik Şurasının katibi Ramiz Mehdiyev çıxış edərək bütün məsələlərlə bağlı Azərbaycanın mövqeyini açıq şəkildə ifadə etdi, ölkəmizin müasir çağırışlara və təhdidlərə qarşı əlaqəli fəaliyyət göstərilməsinə hazır olduğunu bildirdi".

**MDB ölkələri Təhlükəsizlik şuraları katiblərinin iclasında iştirakın və oradakı müzakirələrin Azərbaycan üçün hansı əhəmiyyət daşıdığı barədə "Yeni Müsavat"ın sualına cavabında deputat Zahid Oruc qeyd etdi ki, Azərbaycan MDB-nin müxtəlif formasiyalı təşkilatlarında əməkdaşlıq forumlarında iştirak etməsə də, təhlükəsizlik amilinə yüksək önəm verdiyindən hər zaman bu tədbirlərdə iştirak eləyib və iştirakımız ölkəmiz üçün əhəmiyyətlidir:** "Ramiz Mehdiyev Azərbaycan hakimiyyətində yüksək vəzifə tutur, dövlət sirlərini bilir və ölkə rəhbərinin ən məxfi dairədə qəbul etdiyi qərarlarla yaxından tanışdır, Azərbaycanın regional və beynəlxalq miqyasda atdığı addımların həyata keçirilməsində iştirak edir. Ona görə də bu ranqda təmsilçimizin hər zaman təhlükəsizlik tədbirlərinə qatılması kifayət qədər konfidensial məxfi məlumatların



Zahid Oruc

dövlətlərarası səviyyədə mübadiləsini, müzakirəsini, birgə təhlilini mümkün edir. Xatırlayırsınızsa, eyni adlı tədbir bir neçə ay öncə Şimali Qafqazda keçirilmişdi və o zaman Rusiyanın xüsusi xidmət orqanlarının rəhbərləri bu məsələni fəal bir şəkildə qoymuşdular ki, ekstremizm, beynəlxalq terrorla Rusiyanın şimal hissəsini 1990-cı illərdəki kimi yenə hədəfə çevirməklə həm də region dövlətlərinin təhlükəsizliyinə zərbə vurmağa çalışırlar. Həmin tədbirdə də cənab Ramiz Mehdiyev iştirak edirdi və bu, o demək idi ki, Azərbaycan qətiyyən bunda maraqlı ola bilməz. Çünki sərhəd ərazilərində destabilliyin mövcud olması, ekstremizm, xüsusilə də bunun dini fanatizm vasitəsilə aparılması ayrıca götürülmüş halda bir ölkəyə zərbə vurmur. Düzdür, bugünkü dünya reallığı ondan ibarətdir ki, terror və ya antiterror mübarizələri də ölkələrin ayrı-ayrı əraziləri ələ keçirməsi, müxtəlif iqtisadi resurslara yiyələnməsinin bir alətinə çevrilib. Amma Azərbaycan terrora münasibətdə hər zaman kəskin mövqe tutub. Ona görə də düşünürəm ki, hörmətli Ramiz Mehdiyevin bu tədbirdə iştirakı ona imkan verir ki, Azərbaycan bölgədə cərəyan eləyən əsas informasiya axınlarının içərisində olsun".

**Deputat ölkəmiz üçün digər önəmli məqamların da olduğunu vurğuladı:** "Azərbaycanın yerləşdiyi məkan müxtəlif qüvvələrin maraq hədəfindədir. Narkotrafik də, silah qaçaqmalçılığa da bu hövzədən keçmək istəyir. Xatırlayırsınızsa, bir müddət öncə Gürcüstan təhlükəsizlik qüvvələri tərəfindən erməni mənşəli şəxslər müxtəlif radioaktiv maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar həbs edilmişdilər. Bu, onu sübut edir ki, Azərbaycanın işğal olunmuş əraziləri həmişə belə bir təhlükə mənbəyi olaraq qalmaqdadır. Düşünürəm ki, bu kimi məsələlər də hər zaman Azərbaycan tərəfindən belə görüşlərdə fəal bir şəkildə qaldırılır. O biri yandan, Azərbaycan müsəlman ölkəsidir və təəssüf olsun ki, Yaxın Şərqdəki terror qurumları özlərinin şəbəkələrinin müəyyən hissəsini məhz belə ölkələrdə yerləşdirməyə daha çox maraqlı olurlar. Bəllidir ki, xüsusilə Çeçenistandan çıxan minlərlə şəxs xilafət ordusu adı altında məhz müsəlman ölkələrində vuruşmaqdadır. Onlar digər dayaqlarını bizim ərazilərimizdən keçərək saxlamaq istəyirlər. Bu yaxınlarda DTX-nin bir neçə bu cür şəxsi ifşa etməsi də sübut elədi ki, bu problem qalmaqdadır. Rusiya əlaqələrinə və həmin məkanda fəal iştirakına rəğmən bu informasiyaların daha çox içərisindədir. Düşünmürəm ki, Moskva tərəfindən göz yumulsun ki, həmin qruplar Azərbaycana sızsınlar. Ona görə də MDB çərçivəsində haqqında söhbət gedən görüşləri Azərbaycan dövlətinin təhlükəsizlik maraqları baxımından çox əhəmiyyətli hesab eləyirik. Ümidvarıq ki, əksər məsələlər kameralar qarşısında müzakirə olunmur, özünün xarakterinə görə bu ətrafda müzakirələr yəqin ki, daha çox məxfi aparılır. Region dövlətlərinin baxışlarını, informasiyalarını, planlarını almaq baxımından bu cür tədbirlərdə iştirak çox əhəmiyyətlidir".

❑ Etibar SEYİDAĞA

# "Aztəminatlı ailələr güzəştli mənzil əldə edə bilməyəcək" - iddia

## Ramil Osmanlı: "Bu layihənin adını "sosial ev" qoyublar, ancaq faktiki..."

**İki gün öncə Mənzil İnşaatı Dövlət Agentliyinin "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi qaydası təsdiq edilib. "MİDA" MMC-nin mənzilləri ilə bağlı qaydalarda qeyd olunur ki, bu mənzillər "Azərbaycan İpoteka Fondu" ASC-nin vəsaiti hesabına verilən güzəştli ipoteka krediti və ya nağd qayda ilə satılacaq. Güzəştlə mənzil almaq üçün ASC-nin agent bankdan ipoteka krediti alınacaq.**

Qeyd edilir ki, bu mənzillər bazar dəyərindən aşağı qiymətə satılacaq. Qaydalarda bildirilir ki, mənzil güzəştli qiymətlə ipoteka krediti hesabına və ya ərizəçinin öz vəsaiti, yaxud kredit təşkilatından cəlb etdiyi kredit hesabına əldə edilə bilər. Güzəştli qiyməti "MİDA" MMC-nin təklifləri əsasında onun Müşahidə Şurası mənzilin qiymətini orta bazar qiymətindən aşağı müəyyən edəcək. Mənzilləri güzəştlə əldə etmək hüququ gənc ailənin üzvü olan şəhid və milli qəhrəman ailəsi, ən azı 3 il dövlət qulluğunda qulluq edənlər, fəlsəfə doktoru elmi dərəcəsi olan şəxslər, ən azı 3 il hərbi xidmətdə olanlar, ən azı 3 il daxili işlər orqanlarında xidmət keçən xüsusi rütbəsi olan şəxslərə tanınır.

Bəs görəsən, aztəminatlı ailələr, mənzil almaq arzusu ilə yaşayan, lakin buna imkanı olmayan, minimum əmək haqqı



ilə yaşayan şəxslər bu layihədən yararlana biləcəkmi?

**"Yeni Müsavat"ın sualını cavablandıran daşınmaz əmlak məsələləri üzrə ekspert, Qiymətləndiricilər Cəmiyyətinin sədri Ramil Osmanlının sözlərinə görə, aztəminatlı ailələr bu imkandan faydalana bilməyəcəklər:** "Çox təəssüflər olsun ki, indiki qaydaları nəzərə alsaq, aztəminatlı ailələr, hazırda kirayədə yaşayanlar, minimum əmək haqqına yaxın aylıq gəliri olanlar bu güzəştli mənzillərdən yararlana bilməyəcəklər. Faktiki olaraq, indiki sosial mənzil layihəsi ipoteka kreditləşməsinin alternatividir. Görünən odur ki, şəhid ailələri, qaçqınlar, hərbi sahədə çalışan dövlət qulluqçuları, dövlət qulluğunda çalışan insanlar güzəştli mənzillərdən yararlana biləcəklər. Sadəcə, o kateqoriyaya müəllimləri əlavə ediblər. Müəllimlərlə bağlı qaydalar, onların əmək haqqının tənzimlənməsi, bu layihədən yararlana bilmələr necə olacaq, bunu deyə bilmərəm. Amma faktiki olaraq, indiki qaydalara görə sizin dediyiniz qruplar təəssüflər olsun ki, layihədən yararlana bilməyəcəklər. Gələcəkdə qanunvericilikdə müəyyən dəyişikliklər etməklə, bu sahəyə cavabdeh olan ayrı-ayrı qurumların təkliflərini nəzərə almaqla yəqin ki, aztəminatlı ailələrin bu proqramdan yararlanmasına şərait yaradılacaq. Əks halda, bu layihənin sosiallığı sual altında qalır".

**Ekspertin sözlərinə görə, indiki halda bu layihədən əsasən orta təbəqə yararlana biləcək:** "Məsələn, polislər, müəllimlər, müxtəlif təyinatlı qruplar yararlana bilərlər. Yəqin ki, burada insanların əmək haqqı da nəzərə alınacaq. Çünki 10 faiz ilkin ödəniş nəzərdə tutulur. Bu isə ən yaxşı halda, təxminən 50 min manat dəyərində bir mənzil üçün 5 min manat ilkin ödəniş deməkdir. Biz əvvəlcədən gözləyirdik ki, Azərbaycanda "sosial ev" layihəsinin müzakirəsi zamanı səsləndirilən təkliflər, eyni zamanda beynəlxalq təcrübə nəzərə alınacaq, aylıq ödənişlər təxminən 100 manat ətrafında formalaşacaq. Ancaq təəssüflər olsun ki, bu belə olmadı. Hələlik müəyyən ümidlərlə gözləməyə məcburuq".

**Ramil Osmanlı onu da vurğuladı ki, bu, uzun illərdir müzakirə edilən "sosial ev" layihəsi deyil:** "Bu layihənin adını "sosial ev" qoyublar, ancaq faktiki olaraq o deyil. İndi qeyd olunan bu qaydalar əslində ipoteka kreditləşməsində var idi. Sadəcə, ipoteka kreditlərinin verilmə qaydalarının bir qədər sadələşdirilmiş formasıdır. Bunu həmin qurumun içində də etmək olardı. Xüsusi bir struktur vahidi yaradıb, orada 50-100 nəfər işçi saxlayıb, dövlət büdcəsindən əlavə saxlanma xərcləri ayırmağa ehtiyac yox idi. İpoteka Fondunun tərkibində 5-10 nəfərlik şöbə yaratmaqla da bu prosesi aparmaq olardı".

❑ Nərgiz LİFTİYEVA

# Ölkə vəkilləri bir saat üçün iki manat alır-nonses

**BAXCP sədri, deputat Qüdrət Həsənquliyevin Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin "Məhkəmələr və hakimlər haqqında" Qanun layihəsinin müzakirəsi zamanı vəkillər barədə dediyi fikirlər gündəm olub. O, Azərbaycanda adambaşına düşən saya görə vəkillərin çox az olmasını vurğulayıb. "Təsəvvür edin, Azərbaycanda 17 min insana bir vəkil düşürsə, Polşada 700 nəfərə, Amerikada isə 50 nəfərə bir vəkil düşür. Ona görə də Ədliyyə Nazirliyi məhkəmə-hüquq sistemində işin effektivliyinin təmin edilməsi baxımından Azərbaycanda hakim və vəkillərin sayının artırılması məsələsinə baxmalıdır" deyə, deputat qeyd edib.**



Q.Həsənquliyevin bu sözlərindən sonra ölkəmizdə vəkilliyə nə üçün marağın getdikcə azalması, buna səbəb olan amillər və digər məsələlər geniş müzakirə olunur. Azərbaycan və qonşu ölkələr müqayisə edilir. Nəticələrdən məlum olur ki, vəkillərin sayına görə Azərbaycan qonşu dövlətlərdən geri qalır. Təkcə bir faktı qeyd etmək olar ki, əhalisinin sayına görə Azərbaycandan 8 dəfə böyük olan qardaş Türkiyədə əksər ailələrin şəxsi vəkilləri olur.

Ölkəmizdə vəkillərin sayının az olmasını bir sıra səbəblərlə əlaqələndirirlər. Hüquq fakültəsini bitirənlərin daha çox digər sahələrə meyl etdikləri bildirilir. Bundan əlavə, Vəkillər Kollegiyasının bu sahədə fəaliyyətinin qənaətbəxş olmamasının, bir sıra vəkillərin siyasi baxışları səbəbindən kollegiyadan uzaqlaşdırılmasının bu sahəyə ciddi zərbə vurduğu deyilir. Bəzi vəkillərə olan təzyiqlərin də burada mühüm rol oynadığı qeyd olunur.



**Əlayif Həsənov:** "Vəkillər Kollegiyasına üzv olan vəkillərin cəmi 3/1-i işə çıxır"



**Əsabəli Mustafayev:** "Azərbaycanda vəkillik institutu inkişaf etməyəcək"

**Ötən il Vəkillər Kollegiyasından çıxarılan Əlayif Həsənov vəkillərin sayının az olmasının bir sıra səbəblərini sadaladı:** "Dövlətin bununla bağlı ayrıca bir konsepsiyası yoxdur. Bu nədən ibarət olmalıdır? Hüquq fakültəsini bitirənlərin vəkilliyə hazırlanması məsələsi burada əsasdır. İki illik təcrübə tələb olunur. İnsanlar bunu harada qazanmalı, harada təcrübədən keçməlidirlər? Belə bir kurslar varmı? Bununla bağlı nə dövlətin, nə Vəkillər Kollegiyasının, nə də Ədliyyə Nazirliyinin heç nəyi yoxdur. Qüdrət Həsənquliyev statisik sayı önə çəkir. Sizə deyim ki, bu günləri Vəkillər Kollegiyasına üzv olan vəkillərin cəmi 3/1-i işə çıxır. Əksəriyyət vəkillərin orada sadəcə adları gedir. Onlar, ümumiyyətlə, işə çıxmırlar. Mətbuatdan bəllidir ki, bəzi vəkilləri məqsədyönlü şəkildə cəzalandırırlar. Amma vəkilliyə qəbul sahəsində bir sıra işlər görülüb. Lakin bu işlər davamlı deyil. Vəkilliyin Azərbaycanda inkişaf etməməsinin əsas səbəblərindən biri də odur ki, müstəqil məhkəmə sistemi yoxdur. Məhkəmələr çəkişmə prinsipinə əməl etmirlər. Məhkəmələrdə məsələlər həll olunmadığına görə insanlar başqa yollarla problemlərini həll etməyə çalışırlar. Burada insanları qınamaq olmaz. Müstəqil məhkəmə hakimiyyətinin olmadığı yerdə müstəqil vəkillikdən söhbət gedə bilməz. Bunlar bir-birini tamamlayan məsələdir. Burada vacib olan məsələlərdən biri də vəkilin iş saatına qoyulan qiymətdir. İlkin olaraq, vəkilliyə gələn şəxslərin müəyyən təminatları olmalıdır. Onlar bilməlidirlər ki, lap dövlət hesabına çıxsalar belə, onların minimum tələbatları var. Amma bizim ölkədə vəkilin bir saatına qoyulan qiymət iki manatdır. Vəkillərin küncə sıxışdırılması da bu sahəyə gələnlərin qarşısını alır. Bir sıra insanlar var ki, onların vəkilliklə bağlı arzuları var və müstəqil işləmək istəyirlər. Amma onların gözləri qarşısında başqa bir mənzərə canlanır. Xüsusilə son ayların göstəriciləri buna təsir edir. Vəkilin özünün belə qarantiyası yoxdur. Tutaq ki, vəkilliyə gəlmək istəyən bir şəxs Xaliq Bağırov haqqında qərarı oxuyur. Hakimin onun cəzalandırılması ilə bağlı tələbi budur ki, məhkəmə zalında o, vəkil paltarını könülsüz geyinirdi. Mənim haqqımda olan iş də buna oxşardır. Dəfələrlə məhkum olunmuş bir qadın yazır ki, o mənə siqaretçəkən deyirdi. Nəticədə vəkili məhkəməyə çəkirlər. Bu kimi hadisələr Azərbaycanda konkret vəkilliyin qarşısını alan məsələdir".

**Vəkil Əsabəli Mustafayev Türkiyə, Gürcüstan və digər qonşu ölkələrlə müqayisədə Azərbaycanda vəkillərin sayının az olduğunu bildirdi:** "Bunun müəyyən səbəbləri var. Vəkilliyin sayca inkişafına müəyyən məhdudiyyətlər qoyulub. Bunun özü bir siyasətdir. Hüquqşünaslar arasında da vəkilliyə maraq olduqca azdır. Bu da onunla bağlıdır ki, vəkilliyin maddi təminatı çox aşağıdır. Ölkəmizdə pulsuz yardım sistemi yoxdur. Təyinatla vəkili cəlb edirlər və saatına iki manat ödənilir. Bu məbləğ çox aşağı olduğu üçün vəkillər təyinatla fəaliyyət göstərməyə maraqlı deyillər. Təyinatla müəyyən qrup vəkillər məşğuldur. Belə qruplar isə vəkilliyi gözdən salır. Digər səbəblərdən başlıcası da, istintaq və məhkəmə sistemində ciddi korrupsiya hallarının olmasıdır. Buna görə vəkilin rolu istintaq və məhkəmədə çox azdır. Qərarlar daha çox danışıqlar yolu ilə verilir, yəni təqsirləndirilən şəxslər, yaxud onların yaxınları ilə danışıqlar aparılır. Vəkilə çatası qonorar ona yox, istintaqı, yaxud məhkəməni aparan şəxslərə çatır. Ona görə vəkillik lazımsız institut kimi görünür. Mən və həmkarlarım çıxdığımız işləri Azərbaycanda uduzuruq. Amma o işlər üzrə beynəlxalq məhkəmədə uğur qazanırıq. Bütün bunlar onu göstərir ki, yerli məhkəmələr ədalətli proses aparmaq iqtidarında deyillər. Bu problemlər olduğu sürəcdə Azərbaycanda vəkillik institutu inkişaf etməyəcək. Vəkillərin sayını süni sürətdə artırmaq da olar. Amma onların maddi təminatları olmayacaqsa, həmin şəxslər vəkillikdən uzaqlaşacaqlar".

❑ **Cavanşir ABBASLI**

# 33 rayona dövlət büdcəsindən pul ayrılmayacaq

**Ötən gün 2017-ci ilin dövlət büdcəsi haqqında qanun layihəsi ictimaiyyətə təqdim olundu. Bu büdcə layihəsində diqqət çəkən məqamlardan biri də bir çox rayonlara büdcədən maliyyə ayrılmaması oldu.**

Növbəti ilin büdcə layihəsini dəyərləndirən **deputat Vahid Əhmədov** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, əvvəllər 6 rayonun büdcəsi mərkəzləşdirilmiş büdcədən azad idisə, artıq 33 rayona büdcədən vəsait ayırmayacaqlar. Deputat bunu müsbət bir hal adlandıraraq qeyd etdi ki, həmin rayonlar daxili imkanlar hesabına özlərini dolandıracaqlar. Büdcə isə böyük bir yükdən azad olacaq.

Bəs görəsən, Azərbaycanda rayonların daxili maliyyə imkanları onların illik xərclərinin qarşılanması üçün yetərlidirmi? Rayonların hansı maliyyə mənbələri var və hansı yolla gəlir əldə edə bilərlər?

**İqtisadçı ekspert Qubad İbadoğlu "Yeni Müsavat"a dedi ki, rayonlardakı xərclərin heç də hamısı rasional deyil və həmin xərclərin optimallaşdırılmasına ehtiyac var:** "Bütün Azərbaycanda olduğu kimi orada da əlavə layihələr, kifayət qədər izafi xərclər var. O xərclərin ixtisarını aparmaq lazımdır ki, ən azı büdcənin xərc hissəsi böyük gəlir tələb etməsin. Digər tərəfdən, rayonların maliyyə potensialı da yüksək deyil. Əksinə, xərclərin ixtisarı ilə problemi həll eləmək mümkün deyil. Rayonlara bu günə qədər qoyulmuş investisiyalar əsasən qeyri-kommersiya sahələrində yatırılıb və məhsuldar layihələrə deyil.

Bu investisiyalar tikinti layihələrinə, parkların, yolların salınmasına xərclənib. Eyni zamanda bu xərclər də şişirdilib və rasional xərclənməyib".

**Qubad İbadoğlu rayonların özünü maliyyələşdirmə imkanlarının da zəif olduğunu diqqətə çatdırdı:** "Bizim hesablamalarımız göstərir ki, 2004-cü ildən 2016-cı ilə qədər regionların sosial-iqtisadi inkişafı proqramı çərçivəsində rayonlara 39,5 milyard manat investisiya qoyulub. Bu qədər vəsaitin müqabilində Azərbaycan rayonlarının özünü maliyyələşdirmək imkanlarının məhdud olması onu deməyə əsas verir ki, həmin milyardlarla manat vəsaitlər səmərəli istifadə olunmayıb. Həmçinin həmin vəsaitlər iqtisadiyyat üçün çox önəmli olan əlavə dəyər yaratmayıb. Əlavə dəyər yaratmayan sahələrə qoyulan vəsaitlərdən sonradan hər hansı gəlir əldə etmək mümkün deyil. Məhz bu səbəbdən rayon büdcələri, eləcə də dövlət büdcələri gündən-günə ixtisar olunur".

**İqtisadçının sözlərinə görə, bu məsələdə rayonlara individual qaydada yanaşmaq lazımdır:** "Rayonlarda həm inzibati baxımdan, həm maliyyə baxımından o müstəqillik yoxdur ki, xaricdən investisiya cəlb edə bilsin. Regionların müstəqilliyi olmalıdır ki, onlar bu prosesə müstəqil şəkildə qoşulsunlar və investisiya əməkdaşlığında bərabərhüquqlu tərəflər kimi iştirak etsinlər. O baxımdan, rayonların imkanları çox zəif görünür. Ümumiyyətlə, regionların heç də hamısı investisiya baxımından cəlbedici deyil. Bəzi rayonların investisiya cəlb edəcək sektorları məhduddur. O baxımdan, burada hər rayona ayrıca yanaşmaq lazımdır. Elə rayon var ki, oranın daxili potensialından istifadə edib investisiya cəlb etmək mümkündür. Belə rayonlara individual qaydada yanaşmaq olar. Bir çox rayonların xarici investisiya cəlb etmək potensialı var , sadəcə, ondan istifadə imkanları yetərincə deyil. Ölkədəki və regiondakı iqtisadi vəziyyətində bu investisiya cəlb etmək imkanlarına təsir imkanları mövcuddur".



**Qubad İbadoğlu:** "Rayonların heç də hamısı investisiya baxımından cəlbedici deyil"

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 256 (6577) 18 noyabr 2016

# Ömürlük məhkuma daha 1 il iş verdilər

## Aslan Aslanovun oğlunu öldürən şəxsə ömründən də artıq cəza verildi

**Şəmkirin keçmiş icra başçısı Aslan Aslanovun oğlunun qətlində təqsirləndirilərək ömürlük azadlıqdan məhrum edilən Vüqar Əliyevə daha 1 il iş verilib. Öncə yada salaq ki, Vüqar Əliyev 2003-cü ilin mayında o zaman nişanlısı olan Lamiyə Quliyeva ilə birlikdə kafedə Aslan Aslanovun oğlu, Ruslan Aslanovu qətlə yetirməkdə təqsirli bilinərək həbs olunub.**

Vüqar Əliyev ömürlük, Lamiyə Quliyeva isə hadisə baş verən zaman yetkinlik yaşına çatmadığı üçün 10 il azadlıqdan məhrum edilmişdi. Lamiyə cəzası bitəndən sonra da azadlığa buraxılmamışdı. CM-in 317-ci maddəsi ilə ona yeni iş qaldırılaraq cəzası uzadılmışdı.

Ancaq Lamiyənin həbsdə olduğu zaman uşaq dünyaya gətirməsi barədə məlumatlar ictimailəşəndən sonra o, 2015-ci ilin fevralında azadlığa buraxıldı.

İndi isə ömürlük azadlıqdan məhrum edilən Vüqar Əliyev CM-in 317-2-ci (cəzaçəkmə müəssisəsində və ya istintaq təcridxanasında saxlanılan şəxs tərəfindən qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması və ya istifadəsi) maddəsi ilə təqsirli bilinib və ona Qaradağ Rayon Məhkəməsinin hökmü ilə daha bir il həbs cəzası kəsilib.

Noyabrın 16-da yeni hökmdən şikayətə Bakı Apelyasiya Məhkəməsində Rizvan Səfərovun sədrlik etdiyi hakimlər kollegiyası baxıb. Qobustandakı qapalı həbsxanada saxlanılan Vüqar Əliyevin özü də məhkəmə iclasına qatılıb.

Vüqar Əliyev ittihamın saxta olduğunu bildirib. Mobil telefon gizlədib saxlamaqda təqsirləndirilən Vüqar Əliyev deyib ki, həbsxanadakı müşahidə kameralarının yaddaşına baxış keçirməklə həqiqəti ortaya çıxarmaq olar. Amma nə istintaqı aparan prokurorluq bu işi görüb, nə də Qaradağ Rayon Məhkəməsi.



Hələ “Lamiyə skandalı” ölkə ictimaiyyətinin gündəmini zəbt etdiyi dönəmdə, Vüqar Əliyevin ailəsi Aslanovlar ailəsinin onlarla düşmənçiliyi davam etdirdiklərini bildirirdilər. Qeyd edirdilər ki, Vüqar Əliyevə ömürlük həbs cəzasının verilməsində onların da əli var.

**V. Əliyevə 1 il cəza verilməsindən sonra da oxşar hal yaşanıb. Belə ki, Vüqar Əliyevin anası Məlahət İsmayılova məhkəmədən sonra jurnalistlərə açıqlamasında deyib ki, oğlu haqqında yeni cinayət işi sifarişlə hazırlanıb:** “Aslan Aslanovun oğlu Ədliyyə Nazirliyinin İstintaq İdarəsində müstəntiq işləyir. Onlar bu günədək düşmənçiliyi davam etdirirlər. Lamiyə məsələsində üstü açıldı ki, bunlar sifarişlə adamların başına hansı oyunları açdırırlar. Vüqara ömürlük verdirməklə kifayətlənməyiblər, onu tamamilə məhv eləmək istəyirlər. Baxın, həbsxana rəhbərliyi telefonu hansı əməkdaşın satdığını da bilir, amma onu cəzalandırmır. Əksinə, həbsxananın rəisi başqa cəzaçəkmə müəssisəsinə rəis göndəriləndə onu da özü ilə apardı. Deməli, özünə yaxın adamdır”.

Məlahət İsmayılova bildirib ki, oğlu bütün bu baş verənlərə etiraz olaraq, aclıq aksiyası keçirir.

Qeyd edək ki, Vüqar Əliyevin haqqında hökmdən Avropa Məhkəməsinə şikayət olunub. Artıq kommunikasiya mərhələsi başlayıb və Avropa Məhkəməsi bu iş üzrə sualları cavablandırmaq üçün Azərbaycan hökumətinə dekabra qədər vaxt verib.

❑ **Əli RAİS**



# “Elektron bilərzik” ölkəmizdə niyə tətbiq olunmur?

## Müzəffər Baxış: “Bu, nəzarət tədbirlərinin daha effektli keçirilməsinə imkan verər”

**Ev dustaqlığına buraxılan Rusiyanın iqtisadi inkişaf naziri Aleksey Ulyukayevin qoluna “elektron bilərzik” taxılıb. Bu addım rüşvət almaqda ittiham olunan nazirin hərəkətlərini izləmək üçün həyata keçirilib. Moskvanın İctimai Nəzarət Komissiyasının sədr müavini Yeva Merkaçevanın sözlərinə görə, “elektron bilərzik” müasir və etibarlıdır, ondan azad olmaq çətindir, həm də nəsə baş verəcək olsa, dərhal siqnal məntəqəyə daxil olur.**

Qeyd edək ki, Rusiyada “elektron bilərzik” sistemi uzun müddətdir ki, tətbiq olunur. Bundan əvvəl tanınmış rusiyalı müxalifətçi Aleksey Navalnı da məhkəmə qərarı ilə ev dustaqlığına buraxılaraq, qoluna “elektron bilərzik” vurulmuşdu.

Təkcə Rusiyada deyil, dünyanın bir neçə ölkəsində bu vasitədən geniş istifadə edilməyə başlayıb. Araşdırmalar zamanı məlum olub ki, bu cür islahatlar nəticəsində qanun pozuntularının sayı da getdikcə aşağı düşüb.

Hələ 2013-cü ildə İsveçdə elektron (bilərzik) qandalların sayəsində 5 həbsxananın qapadılmasına qərar verilmişdi. Bildirilirdi ki, 4553 məhbusdan 4528 nəfərinin biləklərində və ya ayaqlarında elektron qandal vasitəsilə ev dustağıdır. Nəticədə, həbs olunan və sonra azadlığa çıxanların 30 faizi yenidən cinayət işləmir və cinayət halları azalıb.

Azərbaycanda isə hələ ki bu cür təcrübədən istifadə edilmir. Bir neçə il bundan öncə həbsdə olan sabiq deputat Gülər Əhmədova elektron bilərzik nəzarəti ilə ev dustaqlığına buraxılmağını xahiş etsə də, onun bu istəyi həyata keçirilməmişdi.

Bəs niyə Azərbaycanda bu vasitədən istifadə edilmir? Halbuki “elektron bilərziklər” vasitəsilə çoxlu sayda istintaq altında olan şəxs öz hökmünü evində gözləyə, həbsxanaların, o cümlədən hökumətin bu məsələdə yükü azalmış olardı.

**Hüquqşünas Müzəffər Baxış məsələyə bu cür şərh bildirdi:** “Cinayət-Prosessual Məcəlləsinin 163-cü maddəsinə görə, ev dustaqlığı qətimkan tədbiri qismində təqsirləndirilən şəxsi həbsdə saxlamadan və cəmiyyətdən tam təcrid etmədən, lakin məhkəmənin qərarı ilə müəyyən edilmiş azadlıq və digər bir sıra hüquqlara məhdudiyyətlər qoyulmasından ibarətdir.

Ev dustaqlığını ayrı-ayrılıqda tətbiq olunan və ya mümkün məcmusu qaydasında aşağıdakı tədbirlər müşayiət edə bilər: elektron nəzarət vasitələrinin tətbiqi, bu vasitələri gəzdirmək və onların işinə xidmət etmək vəzifəsinin qoyulması qaydası nəzərdə tutulub.

Azərbaycanda bir qayda olaraq ev dustaqlığı tətbiq olunan şəxslər üzərində (məsələn, 163.3.5. maddəyə görə nəzarət telefon zənglərinə və ya digər nəzarət siqnallarına cavab vermək, təhqiqat orqanına və ya təqsirləndirilən şəxsin davranışına nəzarət edən digər orqana müəyyən edilmiş vaxtda zəng etmək, yaxud şəxsən gəlmək) vəzifələr qoyulur ki, həftədə bir-iki dəfə polisə gedib qeydiyyatdan keçsin.

Ola bilsin, Azərbaycanın maddi imkanları zəif olduğundan və yaxud bu və ya digər səbəblərdən məlum vasitədən hələ ki istifadə olunmur. Amma çox yaxşı olardı ki, elektron nəzarət bizdə də olunsun. Bu, barəsində ev dustaqlığı qətimkan tədbiri seçilmiş şəxslər üzərində nəzarət tədbirlərinin daha effektli keçirməsinə imkan verər.

Ümumiyyətlə, qətimkan tədbirinin əsas məqsədi ondan ibarətdir ki, şəxs istintaqdan qaçıb gizlənməsin, istintaq, məhkəməyə heç bir maneçilik törətməsin".

❑ **Xalidə GƏRAY**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



DİQQƏT! 2011-ci ildən bütün Beynəlxalq Bal Sərgilərinin qalibi “Darı Tyan Şana” (Qırğızıstan) şirkətinin bal və müalicəvi bal məhsulları Bakıda!

***Atbaşı balı (Ağ bal)***
***Esparset balı (monoflor)***
***İssık kul balı***
***Karkıra balı***
***Uzqen balı***
***Mumiya***
***Oqnyovka pçelinaya***
***Propolis məcunu və s.***

Şirkətin məhsulları yarmarka və bazarlarda satılmır.
Məhsulları bu ünvandan ala bilərsiniz:
Neftçi Qurban küçəsi-119. (Bayıl Doğum evinin yanı)
**Əlaqə telefonu: (012) 49123-82; (051) 922-15-71**



## Elan

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

**Əziz oxucular, xaricdə və Azərbaycanda nəşr olunan qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün zəng etməyiniz və ya email (kioskum.az@gmail.com ailto:kioskum.az@gmail.com) yazmağınız kifayətdir.**

**Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!**
**Telefon: (012) 434-93-01**



## Təbib Darya xanım

Onurğa yırtığı, osteoxandroz, sağalmaz yaralar, yanıqlar, uzun müddət yataqdan sonra əmələ gələn yaralar, diabetdə trafik xoralar, varikoz genişlənmələr, qadın sonsuzluğunun zəli ilə müalicəsi və digər xəstəlikləri cərrahi müdaxiləsiz, xüsusi məlhəmlərlə və xüsusi metodika ilə inyeksiyalarla müalicə edirəm.

**Tel: 070-888-91-50**

YENİ MÜSAVAT
N 256 (6577) 18 noyabr 2016




Cümə söhbətləri

# Ərbəinin sevgi çatdırışları

**Bismillahir-Rahmənir-Rahim! 40 gündür ki, iman əhli Aşuranın yanğısını yaşayır. Və bundan 10 gün öncə də başlayaraq, nurani insanlar yetişdirən, şəxsiyyətli insanlar formalaşdıran bir əyyam yaşanır. Allah Təalanın xüsusi inayətilə bu günlər ərzində Aşuranın və Kərbəla məktəbinin mahiyyəti, fəlsəfəsiylə bağlı bir çox mövzularda bəhslər olub. Bəhslərə yanaşı, bütün Hüseynsevərlər məkanı kimi, Vətənimizin də hər bir guşəsində anım mərasimləri, əzadarlıq tədbirləri keçirilib. Bu tədbirlərin mənəvi zənginliyi, nurani dolğunluğu xüsusi diqqət yetirilən mövzulardandır. Və bu sırada ən əsası - Aşuranın həqiqətlərini, Kərbəlanın dərslərini nəzəriyyədən əməl müstəvisinə keçirtmək, bu nurani dərsləri gündəlik həyatda yaşatmaq fürsətlərindən yararlanmaqdır.**



**Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com**
**İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı**

## Məhərrəmlik dərsləri

Ərbəindən 10 gün sonra səfər ayı da bitəcək. Hüseyn (ə) qeyrətini, Hüseyn (ə) mübarizəsini simvolizə edən əzadarlıq mərasimləri, insanın vücudi inkişafı üçün nurani fürsətlər yaradan əyyam yavaş-yavaş arxada qalacaq. Və burada insanın özünə verdiyi suallar var: Nə götürə bildi məhərrəm-səfər əyyamından? Nə halda çıxdı bu əyyamdan? Hansı vəziyyətdə bu əyyamı yola salır? Daxilində nə kimi dəyişikliklər baş verib? Nə kəşf edib bu dönəmdə özü üçün, nələri götürə bildi? Bu məktəbin hansı dərslərini öyrəndi? Və bu əyyam bitəndən sonra gündəlik qayğıların təsirləri ona bu dərsləri unutduracaqmı? Əyyamdan götürdüyü ibrətlər həyatına nə qədər təsir edir?

Bu əyyam bitəndən sonra hərə öz həyatına bir cür davam edəcək. Bir qisim insanlar bu əyyam bitdikdən sonra, həyatlarını diametral surətdə dəyişirlər: gündəlik burulğan onları öz orbitinə çəkir və bir müddətdən sonra, artıq məhərrəmliyin onun ovqatında qoyduğu izlər tədricən silinir. Xoş olsun o insanların halına ki, bu əyyamda duyduqlarını, bu dönəmdə yaşadıqlarını, bu əyyamda əldə etdiklərini qoruyub saxlaya bilir, ilboyu bu haləti yaşada bilir.

Bu əyyam insana çox məsələləri öyrədir. Amma mərkəzi xətt kimi, Kərbəla məktəbində bu dərs keçir: izzəti, ləyaqəti heç zaman, heç bir şəraitdə, heç bir kəsə, heç bir məsələyə görə güzəştə getməmək. Əyyam insana hər zaman, hər şəraitdə və hər vəziyyətdə izzəti qorumaq dərsini keçir. İmam Hüseyn (ə) buna görə şəhid olub: razı olmayıb o Həzrət (ə) öz izzətini, ləyaqətini heç bir şeyə, o cümlədən, həyatına da belə dəyişməyə.

Bu əyyam insana Aşura məktəbinin müxtəlif çalarlarını, müxtəlif fraqmentlərini öyrədir. İmam Hüseynin (ə) uğrunda vuruşduğu dəyərlər; Əba Əbdillahın (ə) ən ağır vəziyyətlərdə səbirlilik, təvəkkül, iman, şücaət nümayiş etdirməsi; düşmənə qarşı da belə, rəhimli və şəfqətli olması; hər an Allahla qırılmaz rabitədə olmaq durumu və saysız-hesabsız digər dərslər var burada. Yaxud Xanım Zeynəbin (s.ə) o müsibətli Aşuradan, sonrakı misilsiz ağır imtahanlardan ən yüksək səviyyədə çıxması kimi dərslər var burada. Və bu dərslər nəzəri səciyyəli qalmamalıdır, insanın gündəlik həyatında öz real əksini tapmalıdır.

## Ərbəin günü

Ərbəin günündəyik. İmam Hüseynin (ə) öz qəhrəman məsləkdaşları ilə şəhid olmalarından 40 gün ötür. Ərbəin günü - bir gündür ki, İmam Hüseynin (ə) müqəddəs məzarı ilk olaraq həmin gün ziyarət olunmuşdur. Ərbəin günü Peyğəmbərimizin (s) ən yaxın səhabələrindən olan Cabir ibn Abdullah Ənsarinin adı ilə bağlıdır. Rəsuli-Əkrəmin (s) bu sevimli və əziz məsləkdaşı ilk şəxsdir ki, İmam Hüseynin (ə) şəhadətinin 40-cı günü - "ərbəin" günü, hicrətin 61-ci ili səfər ayının 20-də bu müqəddəs məzarın ziyarətinə gəlmişdir. Cabir Ənsarinin yaxınlarından olan Ətiyyə belə nəql edir: lCabir ibn Abdullah Ənsari ilə İmam Hüseynin (ə) ziyarəti üçün Mədinədən çıxdıq. O zaman ki, Kərbəlaya yetişdik, Cabir Fərat çayının kənarına getdi və qüsl aldı. Sonra libasını geyindi və ətir vurdu. Sonra hər addımında zikr deyə-deyə İmam Hüseynin (ə) qəbrinə tərəf getdi. O vaxt ki, İmam Hüseynin (ə) qəbrinin kənarına çatdıq, mənə söylədi: **"Əlimi pak qəbrin üzərinə qoy"** (cənab Cabir Ənsarinin gözləri görmürdü). Mən belə də etdim. Bu anda gördüm ki, Cabir qəşş elədi və qəbrin üzərinə yıxıldı. Bir az üzünə su vurdum. O vaxt ki, Cabir özünə gəldi, 3 dəfə: **"Ya Hüseyn! Ya Hüseyn! Ya Hüseyn!» dedi».**

Ərbəinlə bağlı cənab Cabir Ənsari - Peyğəmbərimizin (ə) qocaman səhabəsi ki, Ərbəin günündə İmam Hüseynin (ə) müqəddəs məzarını ziyarət etdi - bir mühüm nöqtəni vurğulamışdır. Cənab Cabir Ənsari o kəsdir ki, əziz Peyğəmbərin (ə) insan yetişdirən bağının ən nəcib meyvələrindən hesab edilir. Bəli, həmin bu cənab Cabir, Ərbəin günü Kərbəlanın əziz şəhidlərinə salam verdikdən sonra, bu sözləri deyir: **"Biz də sizin daxil olduğunuz (aid olduğunuz, etdiyiniz) işə şərik idik".**

Cabir Ənsarinin müşayiət edən, bu qocaman möminə yolda yardımçı olan həmin Ətiyyə adlı insan xatırlayır: **"Ona dedim: "Ey Cabir! Biz əziyyət çəkmədik, qılınc vurmadıq! Bu insanların başları bədənlərindən ayrılıb, ailələri tənha qalıb, uşaqları yetim qalmışdır. Necə ola bilər ki, biz əcrdə, savabda onlarla şərik olaq?".** Cənab Cabir cavabında buyurur: **"Ətiyyə! Mən öz iki qulağımla Allahın Rəsulundan (s) eşitmişəm ki, buyurub: "Hər kim bir camaatın əməlini sevsə, o əməlin savabında onlarla şərikdir". Sonra dedi: "Ey Ətiyyə! Rəsulullah (s) buyurdu: "Mənim də əshabımın niyyəti - Hüseynin (ə) və əshabının həmin niyyətidir""**.

## "Mən gözəllikdən başqa bir şey görmədim"

Sevmək. Nifrət etmək. Aşura başdan-başa sevgidən və nifrətdən bəhs edir. Aşurada hər şey İlahi məhəbbətdən və Allaha xatir olan nifrətdən, eybəcərliyə nifrətdən yoğrulub.

Bu gün biriləri tapılır ki, sevgi kimi, məhəbbət kimi duyğulardan öz çirkin, fəsad planlarını irəli aparmaq üçün istifadə edir. Biriləri tapılır ki, məhəbbət kimi ülvi hissi o dərəcədə bayağı və primitiv edir ki, hətta bunun üçün təqvimdə günlər də uydurur - öz mənfiliklə dolu əməllərini yaşatmaq üçün.

Amma bir günlər var ki, başdan-başa həqiqi sevgini simvolizə edir. İnsanlara həqiqi sevgini öyrədən bir günlər, Allah xatirinə nifrətin nə olduğunu da çatdırır. Aşura - bu günlərdəndir. Ərbəin - bu günlərdəndir.

Həzrət Peyğəmbərin (s) və Əhli-Beytinin (ə) mübarək vücudi çeşməsindən su içmiş cənab Cabir, Ərbəin günü bir daha bu dərsi keçir. Ərbəinlə bağlı yaşanan mövzularda bu, həmin dəst-xəttin davamıdır ki, Xanım Zeynəb (s.ə.) Aşura sonrası müsibətlərlə əlaqədar düşmən ona mənəvi dağ çəkmək istədikdə, **"Mən (Kərbəlada) gözəllikdən başqa bir şey görmədim"** deyərək, gözəllik və eybəcərliyin həqiqətdə nə olduğu barədə bəşəriyyətə dərs keçmişdi. Bütün bu ağrılara, olmazın məşəqqətlərə, müsibətlərə gözəllik adı verir. Çünki Allah üçündür. Həqiqi Gözəlliyin yolunda olduğu üçün, özü də gözəldir. Bunlar bir kəslərdir ki, insan duyğularının ən ali dərəcələrindən dərs verirlər.

## Kimi və nəyi sevirsənsə, onunlasan

Əsrlər keçəcək. Bəşəriyyət nə qədər irəli getsə də, bu dərslər köhnəlməyəcək. Əksinə, Aşuradan gözəllik və eybəcərliyin nə olması barədə dərs götürməyi daha da təravətlənəcək. Aşura bizə öyrətdi və Ərbəin bir daha bu dərsi xatırlatdı: **"Kimi və nəyi sevirsənsə, onunlasan".**

Kimi sevirik biz? Nələrə məhəbbətimiz var? İstəyirsənsə biləsən kiminləsən - bax gör nəyi sevirsən. İstəyirsən biləsən dəyərin nədir - bax gör məhəbbətin nəyədir. Kimi sevdiyinə və nəyə bağlı olduğuna nəzər yetir. Kimin adı gələndə halının dəyişdiyinə diqqət et. Beləliklə, kimliyin müəyyənləşər. Allahı xatırladan kateqoriyalara, kamala aparan şeylərə vurğunsansa - xoş halına. İnsanın qəlbi nələrlə döyünürsə - insan elə odur.

Ərbəin bizə öyrədir ki, sevgini, məhəbbətini mütəmadi olaraq təftiş et. Bununla bilərsən özünün inibaha, yaxud tənəzzülə yönəldiyini. Bununla bilərsən hansı yoldasan. Rəsuli-Əkrəm (s) buyurur: **"İnsan, sevdiyi kəslə bir yerdədir".**

Kimi sevirsənsə - onunlasan. Müqəddəs simaları, Həzrət Peyğəmbəri (s), Əhli-Beyti (ə) sevirsənsə, onlarlasan. İmam Hüseynin (ə), Əbülfəzl Abbasın (ə), Rüqəyyənin, Xanım Zeynəbin (s.ə.), Əli Əkbər ağanın, 6 aylıq şəhid Əli Əsğərin adı gələndə qəlbin titrəyirsə - onlarlasan.

İnsan gərək sevdiklərini də, nifrət etdiklərini də sıralasın. Və baxsın. Təftiş etsin. Nə alınacaqsa, onunla biləcək həm durumunu, həm dəyərini. Məhəbbəti nəyədirsə, dəyəri də odur.

İnsanın məhəbbəti nəyədir - ünvanı da oralardır. Məhəbbəti insanlığa, ədalətə, mərhəmətə, əqlə, zəkaya, şücaətədirsə, namusa, qeyrətə, izzətə, həyaya, iffətədirsə - bu keyfiyyətlər onun üçün kamaldır və deməli, bu keyfiyyətləri daşıyan nə qədər kamil daşıyırsa, özündə bu cəhətləri nə qədər çox təcəssüm edirsə - deməli, həmin insan onun üçün daha dəyərli, daha önəmli, daha əzizdir. Əgər insanın məhəbbəti pula, hakimiyyətə, mənsəbə, şöhrətə, vəzifəyədirsə - deməli, bunun daşıyıcılığı nə qədər çoxdursa, həmin şəxs onun üçün o qədər önəmli və əhəmiyyətlidir.

İmam Muhəmməd Baqirin (ə) bu mövzuda çox ayıldıcı bir buyuruşu var. İnsanı silkələyən bir buyuruşdur. Buyurur: **"And olsun Allaha! Allah tərəfindən bizə bəraət yoxdur, Allahla bizim aramızda qohumluq yoxdur. Bizim Allaha qarşı bir höccətimiz yoxdur və itaətdən başqa Allaha heç bir digər vasitə ilə yaxınlaşmırıq. Buna görə sizlərdən kim Allaha itaət edərsə, bizim imamətimizin ona xeyri olar. Və kim Allahın itaətindən boyun qaçırarsa, imamətimizin ona xeyri olmaz. Vay olsun sizlərə, aldanmayın. Vay olsun sizlərə, aldanmayın!"**

Çox ciddi xəbərdarlıq edir İmam (ə). Allaha itaətlə şərtləndirir imamətə bağlılığı. Buyurur ki, Allaha itaət etməsə insan, onun İmam Hüseynə (ə) göz yaşı axıtmasının xeyri olmaz. Həqiqi göz yaşları o zaman olur ki, insan Allah Təalaya bəndəlik etmək eşqində bulunsun. Allahın buyurduqlarına saygı ilə yanaşsın.

## Məhəbbətin verdiyi nicat

İnsanın qəlbində sevgi qərarlaşarsa, aqibəti xeyir olar. Həzrət Əlidən (ə) nəql edilən hədisdə həqiqi məhəbbətin müqabilində nicat tapmaqla bağlı nurani bir müjdə var. Bir gün günorta vaxtı İmam Əlinin (ə) səhabələrindən olan Haris Həmədani gəlir o Həzrətin (ə) yanına. Həzrət (ə) soruşur: **"Səni buraya nə gətirmişdir?" Haris deyir: "And olsun Allaha! Məni bura sənə olan məhəbbət yetirmişdir". Əmirəlmöminin (ə) buyurur: "Əgər doğru deyirsənsə, məni 3 yerdə mütləq görəcəksən: ruhun bədənindən çıxan zaman; Sirat körpüsündə və Kövsər hovuzunun kənarında".**

İstəyiriksə bu mübarək aqibətlə üzləşək - gərək həqiqi məhəbbət olsun qəlbimizdə. Həqiqi məhəbbətin cövhərində isə Allaha bəndəlik durur. Sevən insanın bu sevgiyə uyğun əməli olmalıdır.

Allah Təalanın məhəbbəti necə əldə olunar? İmanın ləzzəti insan tərəfindən nə zaman dadılar? Peyğəmbərimiz (s) öz səhabələrindən birinə buyurur: **"Ey Allahın bəndəsi! Allaha xatir sev və Allaha xatir nifrət bəslə. Allaha xatir dostluq et və Allaha xatir düşmənçilik et. Çünki, Allahın məhəbbətini bunlardan qeyri vasitələrlə qazanmaq mümkün deyil".**

İnsan istəyirsə Allahın məhəbbətini qazansın, Rəsuli-Əkrəmin (ə) bu mübarək buyuruşuna əməl etməlidir. Dostu-düşməni, məhəbbəti-nifrəti Allaha görə olmalıdır.

Mübarək hədisin davamında Peyğəmbərimiz (ə) buyurur: **"İnsan belə etməsə, nə qədər çox namaz qılıb, oruc tutsa da - imanın ləzzətini dada bilməz".**

İnsan duyğularını və rəftarlarını Allaha xatir tənzimləsə, namazlarının və oruclarının nəinki sadəcə əhəmiyyəti olar, o, imanın ləzzətinin nə olduğunu dərk edə bilər.

İmam Cəfər Sadiqdən (ə) nəql olunan hədisdə isə kimin daha üstün olması məsələsinə aydınlıq gətirilir. Buyurulur: **"İki mömin bir-biriləri ilə görüşəndə, onlardan hansı mömin qardaşına daha çox məhəbbət bəsləyirsə - daha üstündür".**

Gördüyümüz kimi, meyar yenə də məhəbbətdir. Allaha xatir Onun bəndəsinə məhəbbət bəsləyən, mübarək dinimizin nəzərində daha üstün dərəcəyə malikdir. İnsanlararası münasibətlərin mürəkkəbliyi barədə minbir kitab yazılıb və münasibətlərdə harmoniyaya nail olmaq barədə minbir tövsiyə verilib. Amma mübarək dinimiz çox sadə yerinə yetirilə bilən, amma effektivliyi baxımından misli görünməyən bir resept təqdim edir: yarışın xoş münasibətdə! Yarışın səmimiyyətdə və mehribanlıqda! Yarışın qarşılıqlı məhəbbətdə! Yarışın bir-birinizə saygılı olmaqda! Və bu məhəbbət Allaha görə olsun. Yəni insan Allaha nə qədər yaxındırsa, ona bəslənən məhəbbət də bir o qədər möhkəm olsun. İmanlılığın təsbitidir bu. Əslində, buna riayət olunsa, insanlararası münasibətdə bircə dənə problem olmaz.

İmam Cəfər Sadiqdən (ə) nəql edilən başqa bir hədisdə dostluq və düşmənçilik etməyin yeganə düzgün meyarı təqdim olunur: **"Dinə xatir dostluq və düşmənçilik etməyənin dini yoxdur".**

**Dəyər əsasında olmalıdır insanın dostluğu və düşmənçiliyi. Həqiqi dəyər əsasında. İlahi dəyər əsasında. Bütün başqa meyarlar - batildir. Bütün başqa meyarlar insanı öz həqiqi missiyasına çatdırmır.**

**Allahım! Bizləri bu mətləbləri dərk edərək, gündəlik həyatda tətbiq edənlərdən qərar ver! Amin!**

YENİ MÜSAVAT
Son səhifə
*N 256 (6577) 18 noyabr 2016*



# Bu xəstəlik onun üzünü şişirdir

Herediter anjioödem xəstəliyi 20 yaşlı Lauren Farley-Smith adlı qızın həyatını kabusa çevirib. Belə ki, bu xəstəlik qızın üzünün normal ölçüsündən iki dəfə artıq şişməsinə səbəb olub. “Daily Mail”də yayımlanan xəbərə görə, nadir görülən xəstəliyin ilk simptomları Laurenin ərgənlik dönəmində özünü göstərib. Qalıcı bir qan xəstəliyi olan herediter anjioödem bədəndəki şişkinliklərə, davam edən qusmalara və kəskin qarın ağrılarına səbəb olmaqla yanaşı, həyati təhlükə də daşıyır. Stress və narahatlıq xəstəliyin irəliləməsinə səbəb olduğu üçün gənc qız tez-tez meditasiya ilə məşğul olur və həkim köməyi alır. Yad insanların baxışları və rəyləri ucbatından depressiyaya girən, antidepresandan istifadə edən Lauren keçən il xəstəliyə məğlub olmayacağı ilə bağlı öz-özünə söz verdi və indi uşaqlıq xəyalı olan stüardessalığa hazırlaşır. Nadir görülən, qalıcı xəstəlik olan herediter anjioödem bədənin müxtəlif əzələlərində şişmələrə səbəb olur. Bəzi insanlarda bu şişkinlik hər ay baş tutsa da, bəzilərində bir neçə aydan bir, ya da ildə bir dəfə baş verir.

# Hamı 28 noyabrı gözləyir...

**“Nike”ın “Back to the Future” filmindən ilham alaraq hazırladığı, uzun müddətdir maraqla gözlənilən öz-özünə bağlanan idman ayaqqabısı HyperAdapt-ın satışa çıxacağı tarix açıqlanıb.**

İstifadəçi idman ayaqqabısını geyindikdən sonra bağcıqların öz-özünə sıxılmasını təmin edən mexaniki bir sistemə sahib HyperAdapt 1.0 üzərində təkrar doldurulan batareya iştirak edir. Üzərindəki LED işıqlar sayəsində batareya vəziyyətini təqib edə biləcəyiniz ayaqqabı 3 saat davam edən tam doldurulması ilə təxminən 2 həftə istifadə ömrü vəd edir. “Nike” noyabrın 28-də ayaqqabını rəsmi olaraq satışa çıxaracaq. Dəyəri isə 720 dollar olacaq.




İlk mərhələdə Amerikada satışa çıxacaq ayaqqabının digər ölkələrə nə vaxt gətiriləcəyi bilinmir.

# Qardaşını müalicə etmək üçün bakirəliyini satmaq istədi

19 yaşlı çinli qız ölmək üzrə olan qardaşını xilas etmək üçün bakirəliyini satışa çıxarmaq istəyib. Yuxarı sinif şagirdi olan Syu Yanxua Xançjo metrosuna düşərək, öz dərdinə diqqət çəkmək istəyib. O, üzərində bakirəliyini satması ilə bağlı elan olan plakatı metroda nümayiş etdirib. Tez bir zamanda polislər qızı saxlayıblar və bildiriblər ki, onun bu planı qanunsuzdur. Çin mətbu orqanı olan 163.com isə üzə çıxarıb ki, onun 23 yaşlı qardaşı üç il öncə xəstələnib və ailə bütün pulunu beyin köçürməsi üçün sərf edib. Buna baxmayaraq, ortada hər hansı nəticə olmayıb. Müalicəni davam etdirmək üçün ailənin hər hansı maddi vəsaiti yoxdur. Qızın qardaşı isə jurnalistlərə etiraf edib ki, bacısının bu planından xəbərsiz olub. O, ailəsinə belə ağrı yaşatdığı və onları bu cür aşağı addımlar atmağa məcbur etdiyi üçün özündən utandığını bildirib.






# 21 aylıq uşaq saçına görə fenomen olub

Sinqapurda yaşayan 21 aylıq qız bir gündə bütün dünyanın diqqət mərkəzinə gəlib. Buna səbəb isə onun əcaib saç yığımı olub. Bir növ palma ağacına bənzər formada saçı yığılan uşaq qıyıq gözləri və 15 santimetr uzunluğundakı “saç quyruğu” ilə şirin bir mənzərə yaradıb. Uşağın 33 yaşlı anası isə deyir ki, qucağında, uşaq arabasında qızı ilə gedərkən onu yolda belə dayandırıb şəkil çəkdirmək istəyirlər. Bir çox adamlar isə düşünür ki, körpənin başında pariki var: “O, dünyaya bu cür gəlib. Əvvəllər mən də bunda qeyri-adi heç nə görmürdüm. Biz hər dəfə bayıra çıxanda Xizer çox böyük diqqətə səbəb olur”.

Uşaq çiməndən sonra anası onun saçını fenlə qurutmur. O, qızının təbii saç modelini qoruması üçün ona fen toxundurmur.





**QOÇ** - Ümumi əhvalınızda gərginlik müşahidə olunsa da, ətrafınızda olan adamlar ovqatınızı az da olsa, yüksəltməyə çalışacaq. Hətta axşama doğru sevindirici xəbər də eşidə bilərsiniz.


**BUĞA** - Ulduzlar şəxsi taleyinizdə müəyyən dönüş yaranacağından xəbər verir. Özünüzü hazır bilsəniz, sözügedən proseslərə daha tez nail ola bilərsiniz. Məsləhətlərə ehtiyacınız var.


**ƏKİZLƏR** - Maddi problemlərinizin olmasına baxmayaraq, ruhdan düşməyin. Əksinə, əzmkarlığınızı daha da artırmaqla bu kimi psixoloji sarsıntıları dəf etməlisiniz. Rəhbər işçilərlə mübahisə etməyin.


**XƏRÇƏNG** - Əsas diqqətinizi ailə-sevgi münasibətlərinin tənzimlənməsinə yönəldin. Əgər bu istiqamətdə uğurlar əldə etsəniz, digər problemləriniz kölgədə qalacaq. Axşam qonaq gedin.


**ŞİR** - Günün ilk yarısı əməkdaşlıq zəminində uğurlu gedişlərə nail olmaq üçün çox səmərəlidir. Aldığınız hər bir təklifi razılıqla qarşılayın. Çünki ulduzlar qarşıdakı yeni işlərə “hə” deyir.


**QIZ** - Təxminən saat 14-ə qədər ümumi ovqatınızda süstlük müşahidə olunsa da, sonrakı müddət normal tərzdə cərəyan edəcək. Çıxardığınız hər bir qərarın nəticəsi barədə düşünün.


**TƏRƏZİ** - Hər mənada uğurlu gün hesab etmək olar. Göy qübbəsi sizi müdafiə etdiyindən nəzərdə tutduğunuz planların əksəriyyətini reallaşdıra biləcəksiniz. Açıq havada çox durmayın.


**ƏQRƏB** - Təzə xəbər eşidəcəyiniz gözlənilir. Hətta peşənizdən asılı olaraq yeni iş təklifləri də ala bilərsiniz. Günün ikinci yarısında xeyirxah adamlarla rastlaşma ehtimalınız var.


**OXATAN** - Yeni əlaqələr yaratmaq üçün böyük şansınız var. Bu, istər işgüzar istiqamətdə, istərsə də səmimilik zəminində real proqnozdur. Odur ki, oturaq işlərə ara verib aktivlik göstərin.


**OĞLAQ** - Müəyyən qədər xərc çəkəcəyiniz gözlənilir. Əgər bu, xeyirxah istiqamətə yönəlibsə, bundan yalnız məmnun olmaq lazımdır. Bugünkü təqvimdə kimlərisə sevindirmək böyük savabdır.


**SUTÖKƏN** - Astroloji göstəricilərə əsaslansaq, bu təqvimi nisbətən gərgin şəraitdə başa vuracaqsınız. Neytral olmağa çalışın. Səhhətinizi qorumağınız da məsləhətdir. Bu gün uzaq səfərə çıxmaq münasib deyil.


**BALIQLAR** - Aktiv fəaliyyətə ara verməlisiniz. Əks təqdirdə cəhdləriniz boşa çıxacaq. Sizin üçün ən düşərli məqam işgüzar görüşlərdə iştirak etmək və ya yaxın ünvana qonaq getməkdir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Anestezioloq qonşunun itini yatızdırdı, sonra da oğurladı



İstanbulda Tevfik C. adlı anestezioloq qonşusunun itinə öncə narkoz iynəsi vurub, sonra da onu qaçırıb. Meşəlik əraziyə atılan it təxminən bir ay sonra tapılıb. İtin sahibi olan Güzelhan ailəsi isə 1 ay öncə binanın həyətində saxladıqları heyvanın itməsindən şübhələnib, binanın təhlükəsizlik kameralarına baxıblar. Görüntülərdə anestezioloq qonşunun itə iynə vurub bayıltması, ardınca isə maşının baqajına qoyması öz əksini tapıb. Hadisədən bir ay sonra it tapılıb. Məlum olub ki, qonşuları itin davamlı hürməsindən narahat olduğu və yuxusuz qaldığı üçün bunu edib: “Qonşum dedi ki, digər itlərə də iynə vurub azdırmağı planlaşdırsa da, bizimkindən başqa hamısı qaçıb”. İtin sahibləri qonşuları barədə polisə şikayət veriblər.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750